RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 217 (10237) 25 noyabr 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Kəlbəcər Zəfərin işığında yenidən qurulur



Prezident İlham Əliyev bu qədim diyarı cənnətə çevirir

2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Qələbə Kəlbəcərin də işğaldan azad edilməsini təmin etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Vətən müharibəsinin ilk günlərində Kəlbəcərin şimal hissəsində strateji yüksəkliklərin Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçməsi hərbi əməliyyatların sonrakı gedişinə mühüm təsir göstərdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Biz Kəlbəcərin şimal hissəsində strateji yüksəklikləri götürərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə böyük dərəcədə məhdudlaşdıra bildik və faktiki olaraq onlar Basarkeçər-Kəlbəcər yolundan istifadə edə bilmədilər".

Vətən müharibəsində əldə olunan Qələbənin nəticəsi olaraq imzalanmış 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verildi. Beləliklə, Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi. Rayonun hərbi əməliyyatların davam etdirilməsinə ehtiyac qalmadan geri qaytarılması əlavə insan itkilərinin qarşısının alınması baxımından da mühüm əhəmiyyət daşıdı. Bununla belə, ərazini tərk edən qanunsuz məskunlaşdırılmış şəxslərin evləri yandırması, ağacları kəsməsi və müxtəlif mülki obyektləri dağıtması işğalın son günlərində də bölgənin maddi və təbii sərvətlərinə ziyan vurulduğunu göstərdi. Bu əməllər beynəlxalq humanitar hüquq normaları baxımından ciddi məsuliyyət doğuran hallardır.

Kəlbəcərin azad olunması Azərbaycan xalqının tarixi yaddaşında əbədi yaşayacaq hadisələrdən biridir. Prezident İlham Əliyevin 2023-cü il 31 iyul tarixli sərəncamı ilə Azərbaycanın işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi bu tarixi hadisələrin əbədiləşdirilməsinə xidmət edir. Sərəncama əsasən, 25 Noyabr Kəlbəcər Şəhəri Günü kimi müəyyən olunmuşdur. Bu əlamətdar gün yalnız torpaqlarımızın işğaldan azad edilməsinin ildönümü deyil, həm də milli birliyimizin, dövlətimizin qüdrətinin, xalqımızın sarsılmaz iradəsinin və doğma yurda bağlılığının təcəssümüdür.

7

Azərbaycan Monteneqroya böyük sərmayələr yatırıb

Prezident İlham Əliyev Monteneqronun Baş nazirinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Monteneqronun Baş naziri Miloyko Spayiçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycanla Monteneqronun uzun illərdir dost və tərəfdaş olduğunu deyərək, ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin qurulduğunu qeyd etdi.

2

Xalqlarımız arasında əbədi dostluq və qardaşlıq əlaqələri mövcuddur

Prezident İlham Əliyev Gürcüstanın Baş nazirinin müavinini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Maka Boçorişvilini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaq Gürcüstanın Prezidenti Mixeil Kavelaşvilinin və Baş nazir İrakli Kobaxidzenin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

2

Azərbaycançılıq - keçmişimizin mənəvi irsi, bu günümüzün birləşdirici gücü



Tariximizin ən böyük vətənpərvəri olan Ulu Öndər Heydər Əliyevin təlqin etdiyi düşüncə, yaratdığı nümunə hər birimiz üçün mükəmməl vətənpərvərlik məktəbi, vətənə sədaqət dərsidir. Ümummilli Lider öz mənəvi irsi ilə insanın vətəninə sevgisinin həm də onun mənəviyyat göstəricisi olduğunu təlqin edirdi. Bildirirdi ki, vətənpərvərlik insanın daxilindəki duyğulardır.

5

İpək yolunun bərpası imkanlarının müzakirəsi üçün əhəmiyyətli platforma

Beynəlxalq Qafqaz Konqresinin iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi İğdır Universitetinin təşkilatçılığı ilə "İpək yolunun yenidən dirçəlişi" mövzusuna həsr olunmuş Beynəlxalq Qafqaz Konqresinin işə başlaması münasibətilə səmimi-qəlbdən salamlayıram.

Tarix boyu mühüm ticarət yolları üzərində yerləşən İğdır bu gün də özünün əlverişli mövqeyini qoruyaraq regional əməkdaşlığın inkişafına töhfə verməyə davam edir. İğdırın Naxçıvanla birbaşa qonşuluğu, bölgələr arasında tarixən mövcud olan sıx təmaslar və qarşılıqlı rəğbət qardaş xalqlarımızı bir-birinə daha da yaxınlaşdıraraq Azərbaycan-Türkiyə əməkdaşlığının möhkəmlənməsinə və regional bağlılığa xidmət edir.

Ortaq soy-kökə və qardaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri tarixi Şuşa Bəyannaməsi ilə ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə qalxdı. Fəxrlə qeyd edə bilərik ki, üstün coğrafi mövqeyi ilə Avropa və Asiya arasında körpü rolunu oynayan ölkələrimizin birgə həyata keçirdiyi nəhəng layihələr Cənubi Qafqazın və ümumilikdə bütün Avrasiya regionunun nəqliyyat, enerji və bağlantı xəritəsini yenidən tərtib etdi.

Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar edilməsi bu regionu beynəlxalq nəqliyyat dəhlizləri və iqtisadi əməkdaşlıq baxımından mühüm strateji əhəmiyyətə malik məkana çevirmişdir. Azərbaycanın təşəbbüsü ilə hazırda reallaşdırılan Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin etməklə yanaşı, Türkiyə ilə birbaşa quru nəqliyyat əlaqələrimizin genişlənməsinə, eyni zamanda Orta dəhlizin imkanlarının artırılmasına, beynəlxalq ticarət və logistika əlaqələrinin inkişafına və daha geniş mənada tarixi İpək yolunun dirçəldilməsinə xidmət edəcəkdir.

İnanıram ki, Beynəlxalq Qafqaz Konqresi regionumuzun gələcək inkişaf perspektivlərinin, İpək yolunun bərpası imkanlarının müzakirəsi üçün əhəmiyyətli platforma olacaq, bölgədə sülhün, sabitliyin, qarşılıqlı etimadın möhkəmləndirilməsinə və dayanıqlı inkişafın təmin edilməsinə öz töhfəsini verəcəkdir.

Bütün iştirakçılara səmərəli müzakirələr və tədbirin işinə uğurlar arzulayıram.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 noyabr 2026-cı il

TRIPP layihəsi reallığa çevrilir

Bu marşrut Azərbaycanın statusunu möhkəmləndirəcək və region dövlətləri üçün geniş iqtisadi perspektivlər açacaq



TRIPP-ın əhəmiyyəti Azərbaycanın Avrasiya nəqliyyat şəbəkələrindəki mövqeyini yeni mərhələyə daşıyır. Naxçıvanla ölkənin əsas hissəsi arasında maneəsiz və təhlükəsiz əlaqənin bərpası daxili nəqliyyat bütövlüyünü möhkəmləndirməklə yanaşı, Azərbaycanın Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyaya, Cənubi Qafqaz üzərindən isə Qərb bazarlarına çıxış imkanlarını şaxələndirir.

5

Azərbaycan Monteneqroya böyük sərmayələr yatırıb

Prezident İlham Əliyev Monteneqronun Baş nazirinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Əvvəli 1-ci səh.

Dövlətimizin başçısı gələn il Monteneqro Prezidentinin ölkəmizə rəsmi səfər edəcəyini bildirdi və vurğuladı ki, bütün bunlar siyasi, iqtisadi, investisiya, həmçinin bir çox digər sahədə əlaqələrimizin inkişafında müsbət dinamikanın olduğunu və yaxşı nəticələrin əldə edildiyini göstərir.

Prezident İlham Əliyev Baş nazirin səfərinin uğurlu keçəcəyinə və ikitərəfli əməkdaşlığımızın gücləndirilməsinə mühüm töhfə verəcəyinə əminliyini bildirdi.

Bakıda olmaqdan məmnunluğunu ifadə edən Baş nazir Miloyko Spayiç öz növbəsində iki ölkənin uzun müddətdir müxtəlif formatlarda dost və tərəfdaş olduğunu vurğuladı. Azərbaycanla əlaqələri inkişaf etdirməkdə maraqlı olduqlarını deyən qonaq münasibətlərimizin yaxşı perspektivlərə malik olduğunu qeyd etdi.

Miloyko Spayiç Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə edilmiş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanın regionda sülh gündəliyinin təşəbbüskarı olduğunu dedi və vurğuladı ki, ölkəmiz bölgədə davamlı sülhün, sabitliyin möhkəmləndirilməsi üçün səylərini bundan sonra da davam etdirəcək. Baş nazir Azərbaycanın Monteneqroya böyük sərmayələr yatırdığını deyərək, bunun ölkə iqtisadiyyatına müsbət təsir göstərdiyini bildirdi.

Görüşdə Azərbaycanın Monteneqroda həyata keçirdiyi investisiya layihələrinin gələcəkdə genişləndirilməsi üçün imkanların olduğu da qeyd edildi.

Miloyko Spayiç qarşılıqlı turist axınına toxunaraq bildirdi ki, çoxsaylı azərbaycanlı turistlər Monteneqroda, Monteneqro turistləri isə Azərbaycanda özlərini rahat hiss edirlər.

Qonaq bütün bunlara görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

Söhbət zamanı infrastruktur layihələri, enerji təchizatı, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycan və Monteneqro Baş nazirlərinin görüşü olub



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 24-də ölkəmizdə səfərdə olan Monteneqronun Baş naziri Miloyko Spayiç ilə görüşüb.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Monteneqro əlaqələrinin müsbət dinamikasından məmnunluq ifadə olunub, ötən dövr ərzində qarşılıqlı faydalı əməkdaşlığın əhatə dairəsinin genişləndiyi qeyd edilib.

Tərəflər iqtisadi-ticari əməkdaşlığın potensialından daha səmərəli istifadə olunmasının vacibliyini vurğulayıblar, qarşılıqlı investisiyalar sahəsində əldə olunan müsbət nəticələri yüksək qiymətləndiriblər. Humanitar əməkdaşlığın əhəmiyyəti qeyd edilərək, turizm, mədəniyyət və təhsil sahələrində mübadilələrin daha da genişləndirilməsinə qarşılıqlı maraq ifadə olunub.

Görüşdə Azərbaycan-Monteneqro münasibətlərinin müxtəlif istiqamətlərdə inkişaf etdirilməsi perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Xalqlarımız arasında əbədi dostluq və qardaşlıq əlaqələri mövcuddur

Prezident İlham Əliyev Gürcüstanın Baş nazirinin müavinini qəbul edib



Əvvəli 1-ci səh.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan Prezidentinin 2026-cı ilin aprelində Gürcüstana dövlət səfəri məmnunluqla xatırlandı, səfər çərçivəsində yaxşı nəticələrin əldə olunduğu vurğulandı.

Xalqlarımız arasında əbədi dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğu qeyd edildi və bundan irəli gələrək bu gün Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyi bildirildi.

İkitərəfli gündəlikdə duran məsələlərin müzakirəsi və əlaqələrimizin genişləndirilməsi baxımından müntəzəm olaraq həyata keçirilən yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə, həmçinin bu yaxınlarda keçirilmiş hökumətlərarası komissiyanın iclasına toxunuldu. Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlərin Gürcüstan tərəfindən alqışlandığını bildirdi.

Cənubi Qafqaz regionunda mövcud sabitliyin önəmi qeyd edildi, Azərbaycanda və Gürcüstanda, həmçinin daha geniş regionda hökm sürən sabit vəziyyətin ölkələrimizin inkişafında rolu vurğulandı.

Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin artması məmnunluqla qeyd edilərək, bu nəqliyyat dəhlizinin, həmçinin Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi müxtəlif bağlantı layihələrinin əhəmiyyətinə toxunuldu.

Prezident İlham Əliyev regional məsələlərdə hər zaman inklüziv yanaşmanın olmasının vacibliyini vurğuladı. Bu xüsusda Azərbaycanın və Gürcüstanın regionda birgə səylərlə həyata keçirdiyi Orta dəhliz layihəsinin artıq funksional olduğu vurğulandı və bu xətlə daşımaların mütəmadi əsasda artdığı bildirildi.

Bu yaxınlarda imzalanmış "Azərbaycan Respublikası, Bolqarıstan Respublikası, Gürcüstan və Türkiyə Respublikası hökumətləri arasında təmiz enerji sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in, həmçinin Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Qara dənizin dibi ilə çəkilməsi planlaşdırılan elektrik xətti layihəsinin önəmi qeyd edildi.

Söhbət zamanı Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçıları Məşvərət Görüşü formatına tamhüquqlu üzv qəbul edildiyi xatırlanaraq, Gürcüstanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin genişlənməsinin regional əməkdaşlığın inkişafı baxımından vacibliyi bildirildi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Azərbaycan və Gürcüstan yaxın dost və strateji tərəfdaş ölkələrdir



Noyabrın 24-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Maka Boçorişvilinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisdə salamlamaqdan məmnunluğunu bildirən Milli Məclisin Sədri bu səfərin iki ölkə arasındakı münasibətləri daha da möhkəmləndirəcəyinə və əməkdaşlıq üçün yeni imkanlar yaradacağına inamını ifadə edib.

Söhbət zamanı bildirilib ki, Azərbaycan və Gürcüstan yaxın dost və strateji tərəfdaş ölkələrdir. Gələn il ölkələrimiz diplomatik münasibətlərinin 35-ci ildönümünü qeyd edəcəklər.

Yüksəksəviyyəli təmasların və müntəzəm siyasi dialoqun ikitərəfli əlaqələrin möhkəmləndirilməsi üçün mühüm rolundan danışan spiker Sahibə Qafarova bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana, Baş nazir İrakli Kobaxidzenin isə Azərbaycana səfərlərinin mühüm əhəmiyyətini vurğulayıb.

Bildirilib ki, ölkələrimiz arasında imzalanmış sənədlər iqtisadi əlaqələrin inkişafına töhfə verir. Bu sahədə İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya mühüm rola malikdir. Söhbət zamanı ölkələrimiz arasındakı enerji və nəqliyyat layihələrinin əhəmiyyəti vurğulanıb. Görüşdə iki ölkənin xalqları, həmşinin gənclər arasında sıx əlaqələrin əhəmiyyəti, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivləri barədə də danışılıb.

Parlamentlərarası əlaqələrin rolundan danışan Milli Məclisin Sədri bildirib ki, parlamentlərimiz rəhbərlik, dostluq qrupları, komitələr və beynəlxalq təşkilatlardakı nümayəndə heyətləri vasitəsilə sıx dialoqu davam etdirirlər. 2025-ci ilin martında imzalanmış Əməkdaşlıq Memorandumu bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün zəmin yaradır.

Gürcüstan Parlamentinin Sədri Şalva Papuaşvili ilə görüşlərini xatırlayan Milli Məclisin Sədri iki ölkənin parlamentlərinin komitələri arasındakı əməkdaşlığın perspektivlərindən danışıb. O, Azərbaycan və Gürcüstan parlamentlərinin Mədəniyyət komitələri arasında imzalanmış Əməkdaşlıq Memorandumunun əhəmiyyətini qeyd edib.

Milli Məclisin Sədri qonağa Ermənistanla sülh prosesinin gedişi barədə də məlumat verib. Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Maka Boçorişvili Azərbaycanda olmaqdan məmnunluğunu bildirərək, Prezident İlham Əliyevlə görüşü və müzakirə olunmuş məsələlər barədə təəssüratlarını bölüşüb.

Azərbaycanın Gürcüstan üçün mühüm tərəfdaş olduğunu deyən qonaq bu gün Gürcüstan-Azərbaycan strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyini bildirib. O, diqqətə çatdırıb ki, iqtisadi, enerji, nəqliyyat sahələri ilə yanaşı, parlamentlərimiz arasında əlaqələrin də inkişaf etdirilməsi vacib məsələdir. Qeyd olunub ki, tezliklə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması regionda dayanıqlı sülh və sabitliyi təmin edəcək. Bildirilib ki, bu sülh prosesi Gürcüstanda da yaxından izlənilir və dəstəklənir.

Söhbət zamanı iki ölkənin təhsil, gənclər siyasəti, parlamentlərarası, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı və digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

"Azərbaycan"

"Gənclərin çağırışaqədərki hazırlığı haqqında Əsasnamə"nin təsdiq edilməsi və "Gənclərin ibtidai hərbi hazırlıq Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 29 may tarixli 119 nömrəli Qərarının ləğv edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 392 **Bakı şəhəri, 24 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 414-VIIQD nömrəli Qanununun tətbiqi və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 24 iyun tarixli 693 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Gənclərin çağırışaqədərki hazırlığı haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Gənclərin ibtidai hərbi hazırlıq Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 29 may tarixli 119 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 5, maddə 360 (Cild I) ləğv edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 sentyabr tarixli 280 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın fəaliyyət Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 390 **Bakı şəhəri, 24 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Hava limanlarının (aeroportlarının) idarə edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 12 iyun tarixli 684 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 sentyabr tarixli 280 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 9, maddə 880) ilə təsdiq edilmiş "Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın fəaliyyət Qaydası"nın 2.1.8-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"2.1.8. hava limanının istismarçısı - bir və ya bir neçə hava limanını qanuni əsaslarla istismar edən dövlət orqanı (qurumu), fiziki və ya hüquqi şəxs;".

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Milli Məclisin iclasında

"Maraqlar toqquşması haqqında" qanun layihəsi müzakirəyə çıxarıldı

Noyabrın 24-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, noyabrın 25-də ölkəmizdə Kəlbəcər Şəhəri Günü qeyd olunacaq. "Bu şəhərimizin də erməni işğalından azad edilməsi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin həm hərbi, həm də diplomatik Zəfərinin nəticəsi olmuşdur. İşğaldan azad edilmiş digər rayonlarımız kimi, bu gün Kəlbəcər də ikinci həyatını yaşayır. Rayonda bərpa-quruculuq işləri həyata keçirilir, keçmiş məcburi köçkün soydaşlarımız doğma yurdlarına dönürlər", - deyə spiker bildirib.



Sonra Milli Məclisin Sədri diqqətə çatdırıb ki, noyabrın 18-dən 20-dək başçılığı ilə nümayəndə heyəti Türkmənistanda işgüzar səfərdə olub. Səfərdə məqsəd MDB Parlamentlərarası Assambleyasının şura iclasında və 61-ci plenar iclasında iştirak etmək idi. Qeyd olunub ki, noyabrın 19-da assambleyanın şura iclası keçirilib, gündəliyin məsələləri ilə bağlı müvafiq qərarlar qəbul edilib. Noyabrın 20-də keçirilən plenar iclasda isə birgə təşəbbüslərin həyata keçirilməsi, qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunub.

Spiker qeyd edib ki, plenar iclasdakı çıxışında MDB-nin Parlamentlərarası Assambleyası çərçivəsində iş birliyinin əhəmiyyəti barədə danışıb. İclasda humanitar əlaqələrə də diqqət yetirilib. Spiker tədbirdəki çıxışında ötən il Laçın şəhərində MDB-nin Mədəniyyət Paytaxtı ilinin təntənəli açılış mərasimi çərçivəsində genişmiqyaslı işlərin görüldüyünü qeyd edib, ölkəmizin 7 şəhərində III MDB Oyunlarının təşkil olunduğunu vurğulayıb.

Nəzərə çatdırılıb ki, Milli Məclisin deputatları Parlamentlərarası Assambleyanın seçkilərin monitorinqi fəaliyyətində mütəmadi iştirak edirlər. Spiker deyib ki, səfər çərçivəsində deputatlarımız assambleya komissiyalarının iclaslarında fəallıq göstəriblər.

Səfər zamanı parlament sədrləri türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşüblər. Görüşdə digər məsələlər ilə yanaşı, bu da qeyd edilib ki, assambleya parlamentlərimiz arasında əməkdaşlığın inkişafına töhfə verir.

Səfər çərçivəsində Türkmənistan Məclisinin Sədri Dünyagözəl Qulmanova ilə nümayəndə heyətimizin görüşü olub. Görüşdə vurğulanıb ki, Azərbaycan və Türkmənistan dövlət başçılarının birgə səyləri ilə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri ardıcıl inkişaf edir. Söhbət zamanı parlamentlərin dostluq qrupları arasında qarşılıqlı əlaqənin genişləndirilməsi və beynəlxalq platformalarda əməkdaşlığın möhkəmləndirilməsi məsələləri nəzərdən keçirilib.

Milli Məclisin Sədri Sahibə Qafarova deyib ki, səfər çərçivəsində Rusiya Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə də nümayəndə heyətimizin görüşündə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri müzakirə edilib.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Milli Məclisin komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov və Fazil Mustafa, deputatlar Hikmət Məmmədov, Ceyhun Məmmədov, Elman Nəsirov, Azay Quliyev, Razi Nurullayev, Tural Gəncəliyev və Vüqar Bayramov çıxış ediblər. Onlar Azərbaycanın regionda sülhün və əməkdaşlığın bərqərar edilməsi ilə bağlı təşəbbüsləri, işğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadi potensialının inkişafı, milli maraqların qorunması və təhlükəsizliyin möhkəmləndirilməsi kimi gündəmdə olan məsələlərlə bağlı fikirlərini bölüşüblər.

Çıxışlarda Ermənistanın yeni konstitusiya layihəsinin ictimai müzakirəyə çıxarılmasının regionda davamlı sülhün təmin olunması baxımından əhəmiyyətinə diqqət çəkilib, TRİPP layihəsinin icrasına rəsmən başlanması Cənubi Qafqazda yeni əməkdaşlıq və iqtisadi inteqrasiya imkanlarının reallaşması kimi qiymətləndirilib. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə yüsətli quruculuq işlərinin aparılması, həmin ərazilərin iqtisadi potensialının sürətlə artması Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasətin və müəyyənləşdirilmiş strateji hədəflərin real nəticələri kimi dəyərləndirilib. Bu nailiyyətlərin qorunub saxlanılması və tarixi Qələbənin davamlı uğura çevrilməsi üçün ideoloji fəaliyyətin daha sistemli qurulmasının, informasiya təhlükəsizliyinin gücləndirilməsinin, sosial media sahəsində məsuliyyətin artırılmasının vacibliyi vurğulanıb. Bununla yanaşı, regionlarda məskunlaşmanın stimullaşdırılması üçün əlavə imkanların yaradılması, infrastrukturun və dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi zərurəti də diqqətə çatdırılıb.

Çıxışlarda cənab Prezident İlham Əliyevin Vyetnama rəsmi səfərinin nəticələrinə və onun Azərbaycan üçün siyasi, iqtisadi və strateji əhəmiyyətinə də toxunulub. Səfərin Azərbaycan-Vyetnam münasibətlərinin inkişafında yeni mərhələnin əsasını qoyduğu, siyasi dialoqun dərinləşdirilməsi, iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Müzakirədə Azərbaycanın rəqəmsal inkişaf sahəsində əldə etdiyi nailiyyətlər diqqətə çatdırılıb. BMT-nin müvafiq hesabatında Azərbaycanın bir sıra parametrlər üzrə yüksək göstəriciləri Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl rəqəmsallaşma siyasətinin uğurlu nəticəsi kimi qiymətləndirilib və rəqəmsal transformasiya prosesinin əlaqələndirilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Rəqəmsal İnkişaf Şurasının rolu xüsusi vurğulanıb.

Cari məsələlərin müzakirəsindən sonra Milli Məclisin Sədri bildirib ki, gündəliyə 10 məsələ daxildir, ilk 2 məsələ beynəlxalq müqavilələrin təsdiqi ilə bağlı qanun layihələridir. O, bu layihələrin "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə uyğun olaraq bir oxunuşda qəbul ediləcəyini söyləyib.

Gündəliyin birinci məsələsi olan "Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "TotalEnergies EP Absheron B.V.", "SOCAR Absheron" və "ADNOC International ProjectCo 1 RSC Limited" şirkətləri arasında dəyişdirilmiş və yeni redaksiyada tərtib olunmuş sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə qanun layihəsi ilə bağlı parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məlumat verib. Komitə sədri bildirib ki, Abşeron Dəniz Blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yeni redaksiyada tərtib olunmuş saziş Azərbaycanın enerji strategiyasının davamlılığı, ölkəmizin beynəlxalq enerji bazarındakı mövqeyinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron Dəniz Blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş 2009-cu ildə imzalanıb. 2026-cı ildə qəbul edilmiş və yataqda dörd yeni quyunun işlənməsini nəzərdə tutan Tammiqyaslı İşlənmə Layihəsi üzrə Yekun İnvestisiya Qərarına əsasən, SOCAR və podratçı tərəflər sazişi yeni redaksiyada hazırlayıb. Yeni redaksiya üzrə əsas dəyişiklik işlənmə və hasilat dövrünün otuz (30) ildən qırx (40) ilədək uzadılmasıdır. Bu uzadılma Tammiqyaslı İşlənmə üzrə 4-cü quyunun işlənməsi və onun yaratdığı dəyərin reallaşdırılması ilə bağlıdır.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov layihə barədə təmsil etdiyi komitənin müsbət rəyini diqqətə çatdırıb.

Məsələ ətrafında çıxış edən komitə sədri Zahid Orucun və deputat Aydın Hüseynovun fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Mülki və ya ticarət işləri üzrə xaricdə sübutların toplanması haqqında" Konvensiyaya qoşulmaq barədə qanun layihəsi ilə bağlı məlumat verib. Bildirilib ki, "Mülki və ticarət işləri üzrə xaricdə sübutların toplanması haqqında" Konvensiya 1970-ci il martın 18-də Haaqa şəhərində imzalanıb. Konvensiya 42 maddədən ibarətdir. Onun əsas məqsədi xarici elementin iştirakı və ya digər transsərhəd komponentlə müşayiət olunan mülki və ya ticarət işlərində hüquqi yardım məsələlərinin səmərəli şəkildə həll olunması, müxtəlif hüquq sistemlərinə malik dövlətlərin mülki proses sahəsində əməkdaşlığının razılaşdırılmış və sadələşdirilmiş prosedurlar əsasında həyata keçirilməsindən ibarətdir.

Konvensiyanın müddəalarına əsasən, razılığa gələn dövlətin məhkəmə orqanı sübutların əldə edilməsi və ya hər hansı digər məhkəmə hərəkətinin yerinə yetirilməsi üçün digər dövlətin səlahiyyətli orqanına sorğu məktubu vasitəsilə müraciət edə bilər. Konvensiyanın digər maddələri sorğu məktublarının qəbulu, icrası kimi məsələləri və digər zəruri prosedurları tənzimləyir. Azərbaycan Respublikasının konvensiyaya dair bəyanat və qeyd-şərtləri sənədin təsdiqini nəzərdə tutan layihəyə əlavə olunub.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov layihəyə dair komitənin müsbət rəyini təqdim edib.

Sənədin müzakirəsində deputat Aydın Mirzəzadənin fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul olunub.

İclasda daha sonra "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələri qəbul edilib.

Milli Məclisin spikeri gündəliyin son 3 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu söyləyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Maraqlar toqquşması haqqında" qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, qanun layihəsi Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı"nın icrası çərçivəsində hazırlanıb. Sənəd vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı məsələləri, eləcə də vəzifəli şəxslərin xidməti vəzifələrini icra etdikləri və ondan sonrakı dövrdə maraqlar toqquşmasının qarşısının alınması məqsədilə onlara tətbiq edilən məhdudiyyətləri müəyyən edir.

Qeyd edilib ki, maraqlar toqquşmasının, yəni vəzifəli şəxsin xidməti səlahiyyətləri ilə şəxsi maraqları arasındakı ziddiyyətin aradan qaldırılması üzrə səmərəli idarəetmənin olması yarana biləcək hüquq pozuntularının qarşısını alır. Qanun layihəsi maraqlar toqquşmasının qarşısının alınması üçün preventiv tədbirlərin görülməsini nəzərdə tutur.

Layihəyə əsasən, maraqlar toqquşmasının idarə edilməsi onun vaxtında aşkar edilməsini, bəyan olunması və həllini təmin edir, vəzifəli şəxslərin fəaliyyətində səmərəliliyin, şəffaflığın yüksəldilməsinə və cəmiyyətdə onlara etimadın artmasına xidmət edir. Vicdanlı davranış, dövlət və ya ictimai maraqların üstünlüyü, maraqlar toqquşması risklərinin erkən aşkar edilməsi, hesabatlılıq, məsuliyyət, dürüstlük, obyektivlik və qərəzsizlik maraqlar toqquşmasının idarə edilməsinin əsas prinsipləri kimi müəyyən edilir.

Sənəddə qeyd olunur ki, vəzifəli şəxs şəxsi marağına toxunan məsələlərə dair hüquqi və inzibati aktların hazırlanmasında iştirak etmir. Kollegial qurumun üzvü olan vəzifəli şəxs həmin qurum tərəfindən baxılan məsələlər şəxsi marağına toxunduğu hallarda həmin qurumu qabaqcadan məlumatlandırmalıdır.

Layihədə maraqlar toqquşmasını həll etmək üçün müvafiq tədbirlərin görülməsi, o cümlədən vəzifəli şəxsin vəzifə səlahiyyətlərinə yenidən baxılması, dəyişdirilməsi və ya fəaliyyətinə nəzarətin yenidən təşkil edilməsi, xidməti vəzifələrlə ziddiyyət təşkil edən kənar fəaliyyətə və işə xitam verilməsi, vəzifəli şəxsin maraqlar toqquşmasına səbəb olan informasiyaya çıxış imkanlarının məhdudlaşdırılması, vəzifəli şəxsin maraqlar toqquşmasına səbəb olan xidməti vəzifələrin icrasından kənarlaşdırılması, başqa vəzifəyə keçirilməsi və ya vəzifədən azad edilməsi, maraqlar toqquşması yaranan məsələ üzrə qərarların qəbul edilməsində iştirakın məhdudlaşdırılması barədə məsələ qaldırılması nəzərdə tutulur.

Millət vəkili nəzərə çatdırıb ki, qanun layihəsində normalarla yanaşı, onları işlək edən mexanizm də müəyyən edilir. Belə ki, vəzifəli şəxs vəzifəyə təyin olunmazdan və ya xidməti vəzifələrin icrasına başlamazdan əvvəl şəxsi maraqları haqqında bəyannamə təqdim edir. Bununla yanaşı, o, maraqlar toqquşmasının qarşısını öz tədbirləri ilə ala bilmədikdə, bu barədə ona məlum olduğu vaxtdan dərhal, mümkün deyilsə, üç iş günü müddətində səlahiyyətli subyektə yazılı məlumat verməlidir. Məlumat daxil olduqdan və ya maraqlar toqquşmasının əlamətləri aşkar edildikdən sonra səlahiyyətli subyekt 30 iş günü ərzində araşdırma aparır və nəticəsi barədə vəzifəli şəxsə dərhal yazılı məlumat verir. Qərar qəbul edilənədək vəzifəli şəxs həmin məsələ üzrə vəzifə icrasını müvəqqəti dayandırır. Məsələnin həlli ilə bağlı tədbir seçilərkən vəzifəli şəxsin xidməti vəzifələri, şəxsi marağının xarakteri, maraqlar toqquşmasının növü və digər amillər nəzərə alınır. Layihədə, eyni zamanda hər bir vəzifəli şəxs üçün maraqlar toqquşması və korrupsiyanın qarşısının alınması ilə bağlı istənilən məsələ üzrə konfidensial yazılı məsləhət almaq hüququ da müəyyən edilir.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev layihə barədə rəhbərlik etdiyi komitənin rəyini və fikirlərini açıqlayıb. O, qanun layihəsinin dövlət idarəçiliyində şəffaflığın təmin edilməsi, korrupsiya risklərinin azaldılması, vəzifəli şəxslərin məsuliyyətinin artırılması və cəmiyyətin dövlət institutlarına etimadının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını deyib. Bildirib ki, maraqlar toqquşması dövlət vəzifəsini həyata keçirən şəxsin şəxsi maraqları ilə üzərinə götürdüyü xidməti vəzifələr arasında ziddiyyət yarandıqda və ya belə bir ziddiyyətin yaranması ehtimalı olduqda meydana çıxır.

Komitə sədri maraqların toqquşmasının hansı hallarda yarandığını, hansı şəxslərə şamil edildiyini və şəxsi maraqların hansı meyarlar əsasında qiymətləndiriləcəyini müəyyənləşdirməyin əhəmiyyətindən danışıb. O nəzərə çatdırıb ki, layihədə vəzifəli şəxsin maraqların toqquşması ehtimalını müəyyən etdikdə hansı quruma, hansı müddətdə və hansı qaydada məlumat verməli olduğu öz əksini tapıb. Məlumatların qeydiyyatı, yoxlanılması, məxfiliyi və onlarla bağlı qərarların qəbul edilməsi üçün konkret prosedurlar, həmçinin maraqların toqquşmasının həlli yolları ilə bağlı tədbirlər müəyyən olunub. Bununla yanaşı, korrupsiya risklərinin azaldılması və nəzarət mexanizmləri ilə bağlı məsələlər təsbit edilib.

Bildirilib ki, qanunun qəbulundan sonra onun tətbiqi ilə bağlı maarifləndirmə işlərinin aparılması, təlimlərin təşkili və praktiki metodiki tövsiyələrin hazırlanması da mühüm əhəmiyyət daşıyır.

Məsələ barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb. O bildirib ki, "Maraqlar toqquşması haqqında" qanun layihəsi ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyildir ki, ölkəmizdə korrupsiya ilə mübarizə son illərdə qanunvericilik bazasını, idarəetmə sistemini və qaydalarını, inzibati prosedurları, tənzimləmə rejimini, şəffaflıq reqlamentini əhatə etməklə institusional xarakter daşıyır.

Komitə sədri diqqətə çatdırıb ki, korrupsiya ilə mübarizənin maraqlar toqquşması müstəvisində aparılmasının dövlət üçün prinsipial əhəmiyyəti var və belə bir yanaşma son nəticədə iqtisadi idarəetmənin keyfiyyətinin yüksəlməsinə xidmət edir. Həmçinin qeyd edilib ki, antikorrupsiya siyasəti ilə fiskal siyasətin əsas kəsişmə nöqtəsi büdcə vəsaitlərindən istifadənin səmərəliliyidir. Effektiv büdcə siyasəti yalnız vəsaitlərin düzgün planlaşdırılmasından deyil, həmin vəsaitlərin bölüşdürülməsi və istifadəsi zamanı qərarların obyektiv meyarlara əsaslanmasından asılıdır. Buna görə də layihədə müqavilələrin bağlanması, qərarların qəbul edilməsi, dövlət əmlakından istifadə olunması və xüsusilə də dövlət satınalmalarında birbaşa və dolayı iştirakla bağlı mühüm məhdudiyyətlər nəzərdə tutulur. Bu müddəalar dövlət resurslarının bölüşdürülməsi zamanı şəxsi maraqların qərarvermə prosesinə təsirinin məhdudlaşdırılmasına yönəlib. Bununla yanaşı, qanun layihəsində sağlam rəqabətin inkişafına, sahibkarlıq subyektləri üçün bərabər fəaliyyət mühitinin yaradılmasına xidmət edən məsələlər də öz əksini tapıb.

Məsələ ətrafında aparılan müzakirələrdə çıxış edən komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputatlar Razi Nurullayev, Vüqar Bayramov, Hikmət Məmmədov, Elman Nəsirov, Bəhruz Məhərrəmov, Vasif Qafarov layihənin əhəmiyyətini qeyd edərək, bəzi təkliflərini də bildiriblər. Komitə sədri Arzu Nağıyev və deputat Kamal Cəfərov səsləndirilən fikirlərə münasibət bildiriblər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (birinci oxunuş) məlumat verib. Nəzərə çatdırılıb ki, sözügedən qanunun 11-ci maddəsində məhkəmə ekspertinə qoyulan ixtisas tələblərinin dəqiqləşdirilməsi nəzərdə tutulur. Layihəyə əsasən, məhkəmə eksperti olmaq istəyən şəxsin xüsusi bilikləri müvafiq məhkəmə eksperti ixtisası üzrə olmalıdır. Həmçinin hər bir məhkəmə eksperti ixtisası üzrə fəaliyyət göstərmək üçün tələb olunan ali təhsil ixtisasları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən siyahı ilə normativ qaydada müəyyən edilir. Bundan başqa, sənəddə "məhkəmə ekspertizası ixtisası" anlayışı əvəzinə, "məhkəmə eksperti ixtisası" anlayışından istifadə edilməklə terminologiya dəqiqləşdirilir.

Qeyd olunub ki, təklif olunan dəyişikliklər məhkəmə ekspertlərinin fəaliyyət göstərdikləri sahəyə uyğun ali təhsilə malik olmasının təmin edilməsinə, şəhadətnamələrin verilməsində vahid meyarların tətbiqinə və ekspert rəylərinin keyfiyyətinin artırılmasına xidmət edir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rövşən Muradov Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. Bildirilib ki, qanun layihəsi gömrük orqanlarında kadrların xidmət üzrə başqa vəzifələrə keçirilməsinin hüquqi əsaslarını dəqiqləşdirməyə və rotasiya institutunun tətbiqi üçün normativ-hüquqi bazanı yaratmağa, bununla da gömrük sistemində peşəkar idarəetmənin, xidməti intizamın, institusional çevikliyin və korrupsiya risklərinin qabaqlanmasının təmin edilməsinə yönəlib. Qeyd olunub ki, gömrük orqanlarında rotasiya mexanizminin formalaşdırılmasının məqsədi müxtəlif struktur və ərazi vahidlərində toplanmış bilik və təcrübənin qarşılıqlı ötürülməsi, idarəetmə standartlarının vahidləşdirilməsi, yeni səriştələrin formalaşdırılması və müxtəlif vəzifələrdə uzunmüddətli dəyişməzliyin mənfi nəticələrinin qarşısının alınmasıdır.

Nəzərə çatdırılıb ki, layihə ilə "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin 52-ci və 53-cü maddələri qarşılıqlı əlaqədə yeni redaksiyada verilir, başqa işə keçirilmənin əsasları sistemləşdirilir və rotasiya ayrıca hüquqi əsas kimi müəyyən edilir. Yuxarı vəzifəyə, habelə ailə vəziyyətinə görə keçirilmədə vəzifəli şəxsin razılığı tələbi saxlanılır, digər hallarda yerdəyişmə isə qanunla müəyyən edilən müvafiq əsaslara uyğun həyata keçirilir.

Qeyd olunub ki, sənəddə gömrük xidmətinin xüsusi rütbə, ixtisaslaşma, ərazi və xidmətin fasiləsizliyi kimi xüsusiyyətlərinə uyğun ayrıca qaydanın hazırlanması üçün hüquqi əsas yaradılır. Həmin qayda rotasiyanın vahid meyarlarla, planlı və ardıcıl həyata keçirilməsini təmin edəcək.

Komitə sədri Əli Hüseynli məsələ ilə bağlı qeydlərini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

Azərbaycanla Vatikan arasında arxiv sahəsində əməkdaşlığa dair daha bir sənəd imzalanıb

Heydər Əliyev Fondu ilə Vatikan Apostol Kitabxanası və Arxivi arasında 2025-ci ildə imzalanmış Anlaşma Memorandumunun davamı olaraq, Vatikan Apostol Arxivində rəqəmsal konservasiya üsullarının öyrənilməsi və tətbiqinə dair yeni razılaşma sənədi imzalanıb.







AZƏRTAC xəbər verir ki, sənədi Heydər Əliyev Fondu adından Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Vatikan Apostol Arxivi adından isə arxivin prefekti Rokko Ronzani imzalayıblar.

Qeyd edək ki, tarixi və mədəni irsin qorunması, təbliği istiqamətində mühüm fəaliyyət həyata keçirən Vatikan Apostol Arxivi 650-dən çox arxiv kolleksiyasını, ümumilikdə 85 xətti kilometr uzunluğunda arxiv materiallarını özündə birləşdirir. Bu zəngin irsin qorunması və gələcək nəsillərə çatdırılması məqsədilə arxiv məlumatların ehtiyat nüsxələrinin saxlanılması üçün nəzərdə tutulan infrastrukturun yenilənməsi və gücləndirilməsi istiqamətində iş aparır.

İmzalanmış razılaşma bu istiqamətdə əməkdaşlığa, rəqəmsal konservasiya üsullarının öyrənilməsi və tətbiqində birgə fəaliyyəti ehtiva edir və regionumuzun, xüsusilə də Azərbaycanın tarixi, mədəniyyəti və keçmişinə dair mühüm materialların araşdırılması, rəqəmsal mühafizəsi və gələcək nəsillərə çatdırılması baxımından yeni imkanlar yaradır.

Bununla yanaşı, gənc Azərbaycan mütəxəssisləri üçün təlimlərin təşkili, tarixi materialların qorunması sahəsində təcrübə mübadiləsi, birgə elmi tədqiqatların aparılması, arxiv tərəfindən təşkil olunan proqramlarda iştirak və bu istiqamətdə görülən işlərin davam etdirilməsi məsələləri də müzakirə olunub.

Proqram çərçivəsində Vatikan Apostol Arxivinin tarixi bölmələri və oxu zalları ilə tanışlıq olub, həmçinin Vatikan Apostol Kitabxanasında Papa XIV Leonun cari il sentyabrın 14-də açılışını etdiyi AQVA sərgisinə baxış keçirilib.

Daha sonra Vatikan Apostol Kitabxanası və Arxivinin rəhbəri Arxiyepiskop Covanni Çezare Paqatsi ilə görüş keçirilib. Görüşdə gələcək layihələr və əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin Monsinyor Paqatsiyə 2027-ci ildə Vatikan Dövlət Qubernatorluğu, Müqəddəs Pavel kilsəsi və digər Vatikan qurumları ilə həyata keçirilməsi nəzərdə tutulan təşəbbüslər barədə məlumat verilib.

Səfər çərçivəsində "Bambino Gesu" Pediatrik Xəstəxanasının prezidenti Tiziano Onestinin təşəbbüsü ilə görüş təşkil olunub. Geniştərkibli görüşdə səhiyyə sahəsində həyata keçirilməsi nəzərdə tutulan layihələr, eləcə də Azərbaycanla əməkdaşlığın perspektivləri müzakirə olunub.

Söhbət zamanı Azərbaycanda nadir xəstəliklər üzrə tədqiqatların aparılması və bu sahədə birgə əməkdaşlığın davam etdirilməsi istiqamətində yeni razılaşmalar əldə olunub. Eyni zamanda üçüncü ölkələrdə birgə fəaliyyət imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində keçirilmiş görüşlər və əldə olunmuş razılaşmalar Azərbaycan ilə Vatikan arasında mədəni irsin qorunması, elmi tədqiqatlar və səhiyyə sahələrində mövcud əməkdaşlığın genişləndirilməsi, yeni birgə təşəbbüslərin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan və Gürcüstan XİN başçıları strateji tərəfdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər

Noyabrın 24-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Maka Boçorişvilinin geniş tərkibdə görüşü keçirilib.



AZƏRTAC xəbər verir ki, müzakirələr Azərbaycan-Gürcüstan ikitərəfli münasibətlərinin bütün spektrini, strateji tərəfdaşlığın daha da inkişaf etdirilməsi perspektivlərini, eləcə də regional və beynəlxalq məsələləri əhatə edib.

Nazirlər tarixi əlaqələrə, mehriban qonşuluğa, qarşılıqlı hörmət və etimada əsaslanan iki ölkə arasında uzunmüddətli dostluq və strateji tərəfdaşlığın əhəmiyyətini bir daha təsdiqləyiblər. Onlar müntəzəm yüksəksəviyyəli təmasların, Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin və digər institusional mexanizmlərin ikitərəfli əməkdaşlığın daha da gücləndirilməsindəki rolunu vurğulayıblar.

İqtisadi və ticarət əlaqələrinə, bu sahədə müşahidə olunan müsbət dinamikaya, qarşılıqlı investisiyaların və biznes əlaqələrinin təşviqinə, eləcə də ikitərəfli ticarətin şaxələndirilməsinə xüsusi diqqət yetirilib. İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın sonuncu iclasında əldə olunmuş razılaşmaların həyata keçirilməsinin vacibliyi də vurğulanıb.

Nazirlər ikitərəfli enerji əməkdaşlığının regional və beynəlxalq enerji təhlükəsizliyinə töhfəsini qeyd ediblər. Həmçinin təbii qaz və elektrik enerjisinin təchizatı və tranziti ilə bağlı razılaşmalardan irəli gələn imkanlar, Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında "yaşıl enerji" sahəsində əməkdaşlıq müzakirə olunub. Xəzər dənizi-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizinin inkişaf etdirilməsinin əhəmiyyəti də vurğulanıb.

Nazirlər regional nəqliyyat və logistika əlaqələrinin gücləndirilməsində Orta dəhlizin strateji rolunu qeyd edib, Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan hissəsində modernləşdirmə işlərinin başa çatmasını alqışlayıblar.

Xalqlar arasında təmasların, turizm, təhsil, elm, mədəniyyət və idman sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi də vurğulanıb.

Nazirlər regional və beynəlxalq proseslər ətrafında fikir mübadiləsi apararaq, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı hörmət və dəstəyə əsaslanan Azərbaycan-Gürcüstan əməkdaşlığından məmnunluqlarını ifadə ediblər. Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli formatı da daxil olmaqla, regional əməkdaşlıq platformalarının əhəmiyyəti qeyd olunub.

Müzakirələr zamanı Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsi, regional iqtisadi əməkdaşlığın və tranzit əlaqələrinin genişləndirilməsi istiqamətində səylərə də toxunulub. Nazir Ceyhun Bayramov qarşı tərəfi Azərbaycanın Ermənistanla iqtisadi əlaqələrin inkişaf etdirilməsi istiqamətində atdığı konkret addımlar, o cümlədən tranzit məhdudiyyətlərinin aradan qaldırılması və Gürcüstan vasitəsilə Ermənistana neft məhsullarının ixracına başlanılması barədə məlumatlandırıb. Gürcüstanın bu prosesə verdiyi töhfə yüksək qiymətləndirilib.

Nazir Ceyhun Bayramov həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa və quruculuq işləri, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı və mina təhlükəsindən irəli gələn çağırışlar barədə məlumat verib.

Nazirlər qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

"Tolerant və mütərəqqi cəmiyyətin formalaşmasında qadınların rolu" mövzusunda konfrans





Noyabrın 24-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Tolerant və mütərəqqi cəmiyyətin formalaşmasında qadınların rolu" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycanın Dövlət himninin səsləndirilməsi və Dövlət bayrağına həsr olunmuş videoçarxın nümayiş etdirilməsi ilə başlayıb.

Konfransın açılış mərasimində çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirib ki, cəmiyyətlərin yenilənməsi çox zaman qadınların təhsil, maarifçilik, mədəniyyət və ictimai fikir müstəvisində fəallığı ilə müşayiət olunur. Azərbaycanda qadınların ictimai fəallığının dərin tarixi köklərə malik olduğunu deyən komitə sədri 1901-ci ildə Bakıda qızlar üçün ilk dünyəvi məktəbin açılmasını və 1918-ci ildə qadınlara seçki hüququnun verilməsini xatırladıb.

Ramin Məmmədov qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsində insan hüquqları və sosial ədalətlə vəhdətdə müəyyənləşən qadın hüquqları 1995-ci il Konstitusiyası ilə daha da möhkəmləndirilib. Bu siyasi kurs Prezident İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun şəkildə uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən siyasətdə qadın hüquqlarının etibarlı təminatı, onların ictimai-siyasi həyatda və dövlət idarəçiliyində təmsilçiliyinin genişləndirilməsi əsas prioritetlər kimi müəyyənləşdirilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Azərbaycanda dövlət qadın siyasətinin ardıcıl inkişafına diqqət çəkib. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət qadın siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Birinci vitse-prezident Mehriban Əliyevanın tarixi maarifçilik ənənələrinə söykənən çoxşaxəli fəaliyyəti isə qadınların ictimai fəallığının, təşəbbüskarlığının və liderlik imkanlarının genişləndirilməsinə, humanitar dəyərlərin təşviqinə mühüm töhfə verir.

Bahar Muradova bildirib ki, təmsil etdiyi dövlət komitəsinin fəaliyyətinin əsas istiqamətlərindən birini qadınların və qızların potensialının üzə çıxarılması, təhsili, məşğulluğu və sahibkarlıq imkanlarının genişləndirilməsi, o cümlədən iqtisadi müstəqilliyinin və ictimai fəallığının artırılmasıdır. Bu istiqamətdəki çoxsaylı layihələr, proqramlar, təşəbbüslər getdikcə daha geniş populyarlıq qazanır. Komitə sədri dünyəvi təhsil almış, müasir çağırışları anlayan və dayanıqlı fəaliyyət göstərmək potensialına malik qadınların dini maarifləndirmə prosesində də mühüm rol oynaya biləcəyini vurğulayıb. Bu istiqamətdə birgə fəaliyyətin davam etdirilməsinin və gələcəkdə belə müzakirə platformalarının daha geniş müstəvidə keçirilməsinin əhəmiyyətini qeyd edib.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova qadının cəmiyyətdəki rolunun müzakirəsini bugünkü cəmiyyət üçün ən vacib məsələ kimi qiymətləndirib. O, ideologiyanın formalaşmasında ailə və məktəb olmaqla iki əsas institutun rolunu önə çəkərək, uşaqların tərbiyəsində qadınların və analarının xüsusi payı olduğunu bildirib.

Tədbir panel müzakirələrlə davam edib.

"Təhsil, elm və maarifləndirmə: cəmiyyətin inkişafında qadın intellektinin gücü" mövzusunda panel müzakirəsində qadınların sosial statusunun və cəmiyyətdəki rolunun qiymətləndirilməsinə hüquqi, sosial və ictimai münasibətlər kontekstindən yanaşmanın zəruriliyi vurğulanıb. Qadınların təhsil, elm və maarifləndirmə sahələrində rolu, intellektual bacarıqlarının cəmiyyətin inkişafına təsiri, gender bərabərliyi və tolerantlıq dəyərlərinin təşviqi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Konfransın yekun panel sessiyası "Gələcəyin dayanıqlı cəmiyyəti: qadınların gücləndirilməsi naminə strateji hədəflər və tərəfdaşlıq" mövzusuna həsr edilib. Sessiyada qadınların cəmiyyətdə rolunun gücləndirilməsi, gender bərabərliyinin təşviqi, dayanıqlı inkişafda qadınların iştirakının artırılması, eləcə də bu istiqamətdə dövlət qurumları və müxtəlif tərəfdaşlar arasında əməkdaşlığın əhəmiyyəti müzakirə olunub.

Çinin Azərbaycanda humanitar minatəmizləmə fəaliyyətinə növbəti ianəsi

Ağdamda Çinin ölkəmizdə humanitar minatəmizləmə fəaliyyətinə maliyyə dəstəyinin göstərilməsi ilə bağlı sənədin təqdimetmə mərasimi keçirilib

Çin Xalq Respublikası Azərbaycanın humanitar minatəmizləmə fəaliyyətinə dəstəyini davam etdirir. Bu çərçivədə ianənin təqdimetmə mərasimi Ağdam şəhərində baş tutub.



AZƏRTAC xəbər verir ki, mərasimdən əvvəl Çinin ölkəmizdəki səfiri Lu Mey Ağdama səfəri çərçivəsində Nəmirli kəndi ərazisində olub. Səfir burada ANAMA tərəfindən icra edilən humanitar minatəmizləmə əməliyyatları, həmçinin qurumun Ağdam mobil bazasının maddi-texniki imkanları ilə yaxından tanış olub.

ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov səfirə mina probleminin miqyası, ərazilərdə aparılan işlər, tətbiq edilən müasir texnologiyalar və minatəmizləmə fəaliyyətinin mövcud vəziyyəti barədə ətraflı məlumat verib. Səfirin minatəmizləmə fəaliyyəti ilə bağlı sualları cavablandırılıb, o, bu sahədə həyata keçirilən tədbirlər və əldə olunan nəticələrlə yaxından maraqlanıb.

Səfir Lu Mey bildirib ki, Çin tərəfi uzun müddətdir humanitar minatəmizləmə sahəsində beynəlxalq yardım və əməkdaşlığın təşviqinə sadiqdir. Ötən ilin aprel ayında iki ölkə dövlət başçılarının iştirakı ilə Çin və Azərbaycan arasında "Humanitar minatəmizləmə sahəsində əməkdaşlığın gücləndirilməsi haqqında Anlaşma Memorandumu" imzalanıb. Bu sənəd iki ölkə arasında minatəmizləmə sahəsində əməkdaşlığın istiqamətlərini müəyyən edib. Səfir Çin tərəfinin bu istiqamətdə əməkdaşlığın gələcəkdə də inkişaf etdirilməsində maraqlı olduğunu bildirib.

Daha sonra Çin Xalq Respublikasının Azərbaycanda humanitar minatəmizləmə fəaliyyətinə maliyyə dəstəyinin göstərilməsi ilə bağlı sənədin təqdimetmə mərasimi keçirilib. Mərasimdə Çinin Azərbaycandakı səfiri Lu Mey və ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov iştirak ediblər.

Vüqar Süleymanov Azərbaycanın üzləşdiyi mina probleminin miqyasını nəzərə alaraq, beynəlxalq tərəfdaşlar tərəfindən bu istiqamətdə göstərilən dəstəyin xüsusi əhəmiyyət daşıdığını və bu təşəbbüsün humanitar həmrəyliyin göstəricisi olduğunu vurğulayıb. O, Çin tərəfinə humanitar minatəmizləmə fəaliyyətinə verdiyi töhfəyə və Azərbaycana göstərdiyi davamlı dəstəyə görə təşəkkürünü bildirib.

Göstərilən dəstək Azərbaycan və Çin arasında humanitar minatəmizləmə sahəsində əməkdaşlığın inkişafı, azad edilmiş ərazilərin mina və digər partlayıcı sursatlardan təmizlənməsi istiqamətində beynəlxalq dəstəyin gücləndirilməsi baxımından əhəmiyyət daşıyır.

Azərbaycançılıq - keçmişimizin mənəvi irsi, bu günümüzün birləşdirici gücü



"Bizim bir Vətənimiz var - Azərbaycan! Bizim bir dilimiz var - Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var - azərbaycançılıq məfkurəsi. Azəbaycançılıq məfkurəsi bizim bütün uğurlarımızın təməlində dayanan fəlsəfədir".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycançılıq ideologiyası xalqımızın əsrlər boyu formalaşmış tarixi-mədəni dəyərlərini, milli kimliyini və dövlətçilik ənənələrini özündə birləşdirən ən ali məfkurədir. Bu ideya ölkə daxilində yaşayan bütün etnik qrupları və xaricdəki soydaşlarımızı vahid Azərbaycan dövləti və milli maraqlar ətrafında birləşdirən əsas ideoloji dayağa çevrilmişdir.

Bu gün ölkəmizin strateji inkişaf kursunun davamlılığının təmin olunması, qazanılmış nailiyyətlərin qorunması, yürüdülən müstəqil xəttin, cəmiyyətdə ictimai-siyasi sabitliyin dayanıqlığı, vətəndaş cəmiyyəti quruculuğu, ölkənin insan kapitalı ilə gələcəyə hazırlanması kimi mütərəqqi çağırışlarla həmahəng addımlaması və mütləq çoxluğun mənafeyini dolğun şəkildə əks etdirən amillərin qlobal səciyyə daşıması ictimai şüurda həm möhkəmlənib, həm də milli ideya səviyyəsinə yüksəlib. Bu ideyalar ilk növbədə iqtisadiyyatın müəyyən gözləntilərini təcəssüm etdirib, zamanla inkişaf edib, yenilənib, fərqli hədəf və məqsədləri özündə birləşdirib. Bütün bunların kökündə isə azərbaycançılıq ideologiyasının əsasını şərtləndirən vətənə məhəbbət, yurda, torpağa bağlılıq hissi dayanıb. Xalqın milli-mənəvi irsini, tarixini, mədəniyyətini, dilini, bir sözlə, özünəməxsusluğunu göstərən dəyərləri qorumağa yönələn fəaliyyət üstünlük təşkil edib.

Vətənpərvərlik ilk növbədə insanın öz ölkəsinə və xalqına olan sevgisidir. Azərbaycançılıq ruhu bu sevgidən başlanır. Mənəviyyat abidəmiz olan "Kitabi-Dədə Qorqud"un az qala hər sətrindən bunları oxuyur və görürük, ən qədim dövrlərdən üzü bəri yazıb-yaradan klassiklərimizin, şair və yazıçılarımızın əsərlərindən əxz edirik. Bu irsin aşıladığı düşüncə bizi vətənpərvərlik anlayışına milli zəmindən qarşıdurma yaradan ziyanlı ideologiya kimi deyil, bu torpaqları özünə vətən bilən bütün soydaşlarımızın ümummilli maraqlarının müdafiəsi yönündə birləşməsini təmin edən sistem kimi yanaşmağı öyrədir. Bu gün Azərbaycanın bütün dünyaya təlqin etdiyi multikultural dəyərlər, fərqli mədəniyyətlərə hörmət hissi, tolerantlıq eyni zamanda öz vətənimizə də məhəbbət hisslərini gücləndirir.

Ümummilli Lider Heydər Əliyevin irəli sürdüyü milli dövlətçilik kursunu uğurla həyata keçirən Prezident İlham Əliyevin inkişaf strategiyasının nailiyyətləri sayəsində bu gün tarixinin ən qüdrətli dövrünə gəlib çatmış Azərbaycan dövləti üçün də hazırda əsas məsələlələrdən biri xalqımızın milli kimliyini qorumaq, eyni zamanda onu qapalı və dəyişməz anlayışa çevirmədən bəşəri dəyərlərlə uzlaşdırmaqdır. Bu baxımdan Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VIII Qurultayındakı, VII Dünya Mədəniyyətlərarası Dialoq Forumumdakı çıxışları zamanı ideoloji məsələlərə, azərbaycançılıq ideologiyasına xüsusi yer ayırması təsadüfi deyildir.

"Fəxr edirəm ki, mən azərbaycanlıyam"

Tariximizin ən böyük vətənpərvəri olan Ulu Öndər Heydər Əliyevin təlqin etdiyi düşüncə, yaratdığı nümunə hər birimiz üçün mükəmməl vətənpərvərlik məktəbi, vətənə sədaqət dərsidir. Ümummilli Lider öz mənəvi irsi ilə insanın vətəninə sevgisinin həm də onun mənəviyyat göstəricisi olduğunu təlqin edirdi. Bildirirdi ki, vətənpərvərlik insanın daxilindəki duyğulardır. "Əgər bunlar yoxdursa, o insanın mənəviyyatından danışmağa dəyməz. Milli mənlik hər bir adamın özünün milli mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Milli mənliyi olan şəxs həyatın heç bir hadisəsinə laqeyd qalmır". Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir. Onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir.

Ulu Öndər deyirdi: "Xalqımız böyük xalqdır. Böyük tarixə, böyük mədəniyyətə malikdir. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu hər kəsə nə qədər dərindən anlada bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik, vətəndaşlıq hissini, azərbaycançılığı yüksəldərik".

Ümummilli Liderin hələ sovetlər zamanında respublikaya rəhbərliyinin bütün qayəsi, fəlsəfəsi xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanışı məramına hesablanmışdır. İdarəçilikdə bütün addımlar, o cümlədən iqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin etibarlı təməlinə çevrilməli idi. Bu məqsədə yetişmək üçün Heydər Əliyev azərbaycançılıq məfkurəsinin rejimin ideoloji repressiya maşını ilə boğulmasına nəinki imkan verməmiş, eyni zamanda milli məfkurə və düşüncə sahibi olan ziyalıları qorumuşdur.

Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində - kifayət qədər gərgin və taleyüklü bir zamanda ölkəyə rəhbərlik missiyasını öz üzərinə götürən Ulu Öndərin yürütdüyü siyasət yenə də xalqın tarixi ənənələrinin, mənəvi dəyərlərinin, özünəməxsusluğunun müdafiəsinə, qloballaşmanın mənfi təsirlərinin aradan qaldırılmasına xidmət etmişdir. Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdə yürütdüyü siyasətlə milli dəyərlərin, əxlaq normalarının ictimai şüurda möhkəmlənməsinə, eyni zamanda milli-mədəni sərvətin mühafizəsinə və yaradılmasına çalışmışdır. Qərbin kosmopolit ideyalarının sürətlə yayıldığı bir dövrdə milli məfkurənin qorunması, habelə azərbaycançılığın mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi, dini dəyərlərin, adət-ənənələrin gənc nəslə aşılanması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Azərbaycan xalqının milli düşüncəsində, şüurunda tarixi ənənələrə söykənmiş əxlaq kateqoriyası dərin kök salmışdır. Mərdlik, iradə, dosta sadiqlik, prinsiplərə sədaqət, əməldə birlik hər bir azərbaycanlı üçün tarixən ən vacib və vicdanlı yaşam atributları olmuşdur. Böyük rəhbər sadəlik, düzgünlük, vicdanlılıq, ləyaqətlilik, məğrurluq, mərdlik, cəsarətlilik kimi normaları daha uca tutmuş, irəli çəkdiyi, etimad göstərdiyi kadrların da bu keyfiyyətlərə malik olmasına ciddi yanaşmışdır. Ulu Öndərin idarəçiliyinin bütün mərhələlərində qanunçuluğa, hüquq qaydalarına, ədalətə bağlı olması da, əslində, onun zəngin mənəviyyatından rişələnmişdir. Heydər Əliyev güc siyasətinə qarşı qanunun gücünü qoyaraq "haqlı həmişə güclüdür" amilindən çıxış etmişdir.

Ulu Öndər müxtəlif dövlət tədbirlərində gəncləri mənəviyyat, əxlaq, təlim-tərbiyə məsələlərinə xüsusi həssaslıqla yanaşmağa çağırırdı. Bu da təsadüfi deyildi. Ötən əsrin 90-cı illərinin sonuna doğru Azərbaycan gəncliyi müxtəlif yad təsirlərə, neqativ dəyərlərin, ictimai şüurda həzm olunmayan "ənənələr"in hücumuna məruz qalırdı. Həmin dövrdə xalqın qəlibləşmiş milli-mənəvi, əxlaqi dəyərlərini sıradan çıxarmağa yönələn "universal" və ya "kosmopolit" halların gənclər arasında təbliği də geniş vüsət almışdı.

Sivilizasiyalararası dialoq, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, dünya iqtisadiyyatının təmərküzləşməsi, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı bəzən mütərəqqi mahiyyətindən uzaqlaşır, milli mədəniyyətə, mənəvi dəyərlər sisteminə təhlükəyə çevrilir. Bəşəri və milli ideallar, zəngin mənəvi dəyərlər ifrat praqmatikləşmiş kapital münasibətləri fonunda müəyyən aşınmaya məruz qalır. Belə bir şəraitdə gənclərdə milli mənlik şüurunu qoruyub saxlamaq, milli özünüdərki gücləndirmək son dərəcə vacib və aktual problem kimi önə çıxır. Azərbaycanın da belə bir vəziyyətlə üzləşmək təhlükəsində olduğunu görən Ulu Öndər xüsusilə də gənclərə milli-mənəvi dəyərlərə, adət-ənənələrə hörmətlə yanaşmağı tövsiyə edirdi, onları mənəvi ucalığa çağırırdı. Bu örnəklər göstərir ki, vətənpərvərlik, əslində, ötürülən ideologiyadır. Onun gənc nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi çox vacibdir. İstər dərsliklərdəki ayrı-ayrı mətnlərdə, istərsə də aparılan tərbiyəvi söhbətlərdə, tədbirlərdə verilən belə məlumatlar gənclərin vətənimizin zəngin tarixi, xalqımızın zaman-zaman öz varlığını qorumaq üçün apardığı mübarizələr, azadlıq və müstəqillik uğrunda gedən mücadilələr haqqında biliklər əldə etməsinə şərait yaradır. Bu biliklər əqidəyə çevrilərək onlarda vətənpərvərlik hisslərini daha da artırır.

Bir faktı da qeyd edək ki, mükəmməl təhsilin ölkələrin əsas güc faktoruna çevrildiyi müasir dövrümüzdə əsl vətənpərvərlik həm də vətənin sabahı üçün elmli, təhsilli insan kimi yetişməkdir. Yüksək bilik və səriştə ilə, innovasiyalara bələdliklə onun inkişafına töhfə verməkdir. Azərbaycan dövləti bu istiqamətdə də gənclərimizə dəstək verir, yol göstərir, onların inkişafına şərait yaradır. Vətənpərvərlik əzmi diplomatik səngərlərdə də Azərbaycana mühüm zəfərlər qazandırır.

Azərbaycançılığın əsas prinsipləri və dəyərləri

Azərbaycançılıq ideologiyası bir neçə fundamental sütun üzərində dayanır. Bu, ilk növbədə vətəndaş həmrəyliyi və multikulturalizmdir. Etnik və dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün xalqların bərabərhüquqlu vətəndaş kimi vahid Vətən uğrunda birləşməsidir. İkincisi, ana dili və milli-mənəvi irsin yaşadılması, Azərbaycan dilinin dövlət dili kimi qorunması, zəngin ədəbiyyat, musiqi və incəsənət ənənələrinin gələcək nəsillərə ötürülməsidir. Daha bir fundamental sütun dövlət müstəqilliyi və suverenlikdir. Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin və milli təhlükəsizliyinin üstün tutulmasıdır. Ən nəhayət, dünya azərbaycanlılarının birliyi - müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın tarixi Vətənlə əlaqələrinin möhkəmləndirilməsi və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasıdır.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə azərbaycançılıq ideologiyası yeni məzmun və daha böyük güc qazanmışdır. Xüsusilə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər və ölkənin suverenliyinin tam bərpa olunması azərbaycançılıq məfkurəsinin real həyatdakı təntənəsi kimi tarixə düşmüşdür. Savaş günlərində ölkədəki bütün xalqların və siyasi qüvvələrin "Dəmir yumruq" ətrafında birləşməsi bu ideologiyanın cəmiyyətdə nə qədər dərin kök saldığını sübut etdi.

Azərbaycançılıq keçmişimizin mənəvi irsi, bu günümüzün birləşdirici gücü və gələcəyimizin inkişaf strategiyasıdır. Bu ideologiya Azərbaycanın müstəqil, güclü və multikultural dəyərlərə sadiq bir dövlət kimi daim tərəqqi etməsinin əsas təminatıdır.

İradə ƏLİYEVA,
"Azərbaycan"



TRIPP layihəsi reallığa çevrilir

Bu marşrut Azərbaycanın statusunu möhkəmləndirəcək və region dövlətləri üçün geniş iqtisadi perspektivlər açacaq

Beynəlxalq ticarət marşrutlarının şaxələndirilməsi, Asiya ilə Avropa arasındakı quru əlaqələrinin genişləndirilməsi bir çox ölkənin xarici siyasətində əsas prioritetlərdən birinə çevrilib. Qlobal dəyişiklik fonunda Cənubi Qafqaz regionu da təkcə coğrafi keçid kimi deyil, həm də yeni iqtisadi və siyasi arxitekturanın formalaşdığı strateji mərkəz kimi çıxış edir.

Son illərdə regionda nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində atılan addımlar Avrasiyanın logistika xəritəsini yenidən formalaşdırır. Məhz bu tarixi zərurətdən irəli gələn "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinin praktiki icra mərhələsinə qədəm qoyması Cənubi Qafqazda yeni əməkdaşlıq və inteqrasiya dövrünün başlandığından xəbər verir.

2025-ci ilin avqustunda Vaşinqtonda keçirilən görüşlərlə və əldə olunan mühüm razılaşmalarla təməli qoyulan bu təşəbbüs 2026-cı ilin noyabr ayında rəsmi başlanğıc nöqtəsinə çataraq üçtərəfli texniki planlaşdırma mərhələsinə keçib. Məlumata əsasən, noyabrın əvvəlindən etibarən Azərbaycan, ABŞ və Ermənistan arasında işçi qrupların yaradılması, texniki göstəricilərin razılaşdırılması və mövcud kommunikasiyalarla əlaqələndirilməsi istiqamətində intensiv proseslərə start verilib.

Layihənin rəsmi başlanğıcına həsr olunmuş videomüraciətində ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə Vaşinqtonla əməkdaşlığa, sülh gündəliyinin irəlilədilməsinə və layihənin reallaşmasına verdiyi töhfələrə, eləcə də Nobel Sülh Mükafatına namizədliklə bağlı təşəbbüslərinə görə təşəkkürünü ifadə edib. ABŞ Prezidentinin qiymətləndirməsinə görə, TRIPP-in praktiki icrası və bu məqsədlə yeni bir şirkətin təsis edilməsi bütün region boyunca yük, enerji və sərnişin daşımaları üçün əlavə ticarət marşrutları açacaq. Öz növbəsində Prezident İlham Əliyev də rəsmi paylaşımında layihənin başlanması münasibətilə ünvanlanan xoş sözlərə görə həmkarına minnətdarlığını bildirərək Bakının bu prosesə sadiqliyini təsdiqləyib: "Hörmətli Prezident Donald Tramp, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) layihəsinin başlanması münasibətilə mənə ünvanladığınız xoş sözlərə görə səmimi minnətdarlığımı bildirmək istəyirəm".

Prosesin siyasi və təhlükəsizlik məqamları beynəlxalq diplomatiyanın diqqət mərkəzindədir. Layihənin icrasına start verilməsi ərəfəsində ABŞ-nin daxili təhlükəsizlik naziri Markveyn Mullinin Bakıya səfəri və Prezident İlham Əliyev tərəfindən qəbul edilməsi Vaşinqtonun bu məsələdəki siyasi iradəsinin göstəricisi kimi dəyərləndirilir. Bu yüksəksəviyyəli təmaslar ABŞ və Ermənistanın layihənin rəsmi icrası ərəfəsində saatlarını Bakı vaxtı ilə tutuşdurduğunu göstərir. Azərbaycan artıq öz ərazisində üzərinə düşən infrastruktur işlərini böyük ölçüdə tamamlayaraq prosesdə fəal koordinasiya rolu oynayır. Eyni zamanda bu marşrut təkcə kommunikasiya xətti kimi deyil, həm də türk dünyası, Avropa və Asiya ilə əlaqələri gücləndirən geniş təhlükəsizlik və iqtisadi layihə kimi təqdim edilir.

Layihə təkcə avtomobil və dəmir yollarını deyil, həm də enerji ötürücü xətləri, sərhəd-gömrük infrastrukturunu və rəqəmsal kommunikasiya şəbəkələrini əhatə edən kompleks bir sistemdən ibarətdir. İqtisadi müstəvidə bu infrastrukturun işə salınması regionun investisiya cəlbediciliyini əsaslı şəkildə yüksəldəcək. Layihə çərçivəsində xüsusi idarəedici şirkətin təsis edilməsi beynəlxalq maliyyə institutlarının və transmilli korporasiyaların Cənubi Qafqaza kapital yatırması üçün şəffaf və etibarlı mexanizm yaradır. Sərhəd və gömrük prosedurlarının müasir rəqəmsal standartlar əsasında vahid sistemə inteqrasiya olunması sərhədkeçmə müddətlərini minimuma endirərək yükdaşımaların maya dəyərini aşağı salacaq. Eyni zamanda marşrut boyunca çəkiləcək enerji və fiber-optik rabitə xətləri region ölkələrinin enerji təhlükəsizliyini və rəqəmsal suverenliyini gücləndirməklə yanaşı, birgə sənaye zonalarının və yeni xidmət sektorlarının formalaşmasına təkan verəcək.

TRIPP-ın əhəmiyyəti Azərbaycanın Avrasiya nəqliyyat şəbəkələrindəki mövqeyini yeni mərhələyə daşıyır. Naxçıvanla ölkənin əsas hissəsi arasında maneəsiz və təhlükəsiz əlaqənin bərpası daxili nəqliyyat bütövlüyünü möhkəmləndirməklə yanaşı, Azərbaycanın Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyaya, Cənubi Qafqaz üzərindən isə Qərb bazarlarına çıxış imkanlarını şaxələndirir. Bu kontekstdə TRIPP layihəsi Çin və Mərkəzi Asiyadan başlayaraq Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya uzanan Orta dəhlizin mövcud imkanlarını tamamlayan və marşrut müxtəlifliyini artıran mühüm halqa kimi çıxış edir. Azərbaycanın son illərdə yaratdığı liman, dəmir yolu və logistika infrastrukturu TRIPP-in gətirəcəyi yeni imkanlarla birləşərək ölkəmizi beynəlxalq ticarət axınlarını idarə edən regional logistika mərkəzinə çevirir.

Orta dəhlizin bu yeni halqa ilə güclənməsi qlobal ticarət axınlarında vaxt və təhlükəsizlik amillərinin ön plana çıxdığı bir dövrdə Avrasiya məkanında rəqabətqabiliyyətliliyi artırır. Ənənəvi dəniz yollarındakı geosiyasi risklər və şimal marşrutlarındakı məhdudiyyətlər fonunda yüklərin Çindən Avropaya daha qısa müddətdə və fasiləsiz çatdırılması üçün Orta dəhlizin ötürücülük qabiliyyətinin artırılması zərurətə çevrilib. TRIPP dəhlizi məhz bu zərurətə cavab verərək Orta dəhlizin Cənubi Qafqaz seqmentində əlavə logistika qolu yaradır, yüklərin şaxələndirilmiş şəkildə Türkiyə və Aralıq dənizi limanlarına çıxışını sürətləndirir.

Cənubi Qafqazın nəqliyyat və təhlükəsizlik arxitekturasını dəyişən bu təşəbbüs həm birbaşa iştirakçıların, həm də qlobal və regional aktorların maraqlarının kəsişdiyi nöqtədə yerləşir. Qlobal müstəvidə ABŞ regionda sülhü və uzunmüddətli iştirakını möhkəmləndirməyi, Avropa İttifaqı Mərkəzi Asiya ilə alternativ enerji və logistika xətlərini genişləndirməyi, Çin isə kommersiya baxımından səmərəli və sabit ticarət marşrutları əldə etməyi hədəfləyir. İranın da bu marşrut vasitəsilə "Şimal-Cənub" və "Şərq-Qərb" dəhlizləri arasında inteqrasiyadan ciddi iqtisadi fayda götürə biləcəyi vurğulanır.

Nəticə etibarilə 2026-cı ilin noyabrında icrasına start verilən TRIPP layihəsi Cənubi Qafqazda sülh gündəliyinin iqtisadi əməkdaşlıqla möhkəmləndirilməsinin nümunəsidir. Azərbaycanın əlverişli coğrafi mövqeyini müasir infrastrukturla birləşdirərək irəli sürdüyü regional inteqrasiya siyasəti bu dəhliz vasitəsilə həm Orta dəhlizin ötürücülük qabiliyyətini artırır, həm də Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına real zəmin yaradır. Qarşıdakı dövrdə İrəvanın konstruktiv mövqe sərgiləməsi və Vaşinqtonun regional balansı qoruyan hüquqi təminat mexanizmlərini işə salması nəticəsində TRIPP marşrutu regionun rifah və sabitlik xəttinə çevriləcək.

İsmayıl QOCAYEV,
"Azərbaycan"

2027-ci ilin dövlət büdcəsi zərfi: *maliyyə təhlükəsizliyindən fiskal dayanıqlığa*

"Öncə hansı büdcəni deyil, hansı dövlətin büdcəsini müzakirə edirik?" sualına cavab verməliyik

2027-ci ilin dövlət büdcəsi zərfinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim edilməsi ilə parlamentdə sənədin müzakirələrinə başlanılmışdır.

Büdcə zərfi hər şeydən əvvəl Prezident İlham Əliyevin strateji təşəbbüslərini, sosial-iqtisadi inkişafın əsas hədəflərini, yeni dövrün çağırışlarını əks etdirir və onların reallaşdırılması üçün etibarlı maliyyə təminatı yaradır.

Dövlət büdcəsinin qiymətləndirilməsi yalnız rəqəmlərin müqayisəsi ilə məhdudlaşmamalıdır

Büdcə müzakirələri çərçivəsində səslənən fikirlərdən biri büdcə gəlir və xərclərinin 1,7 faizlik artımının qənaətbəxş olmaması ilə bağlı idi. Lakin nəzərə almalıyıq ki, büdcənin qiymətləndirilməsi yalnız rəqəmlərin müqayisəsi ilə məhdudlaşa bilməz. Büdcənin strukturu, dayanıqlığı, nəticəliliyi və gələcək üçün yaratdığı imkanlar onun ümumi həcmindən və artım dinamikasından daha vacibdir. Digər bir tərəfdən də növbəti ilin proqnozlarına əsasən, icmal büdcənin xərclərinin 50 milyard manatı, dövlət büdcəsi xərclərinin isə ÜDM-də payının 30 faizi ötməsi dövlətin maliyyə imkanlarının kifayət qədər yüksək olduğunu göstərir.

Təhlükəsizlik və iqtisadi inkişaf xərcləri bir-birinə alternativ deyil

Müstəqil xarici siyasətin, qətiyyətli siyasi iradənin arxasında güc amili dayandığı kimi, uzunmüddətli milli güc də dayanıqlı iqtisadiyyata, mütərəqqi texnologiyaya, rəqabətqabiliyyətli insan kapitalına və müasir infrastruktura əsaslanır. Buna görə büdcədə təhlükəsizlik və iqtisadi inkişaf xərcləri bir-birinə alternativ deyil, biri digərini tamamlayır.

Təsadüfi deyildir ki, 2027-ci ilin büdcə zərfində müdafiə və təhlükəsizlik xərcləri ilə iqtisadi fəaliyyət xərcləri təxminən eyni məbləğdə və eyni xüsusi çəkidə nəzərdə tutulmuşdur. Belə ki, növbəti ildə müdafiə və milli təhlükəsizlik xərclərinə 8,8 milyard manat, iqtisadi fəaliyyətlə bağlı xərclərə isə 8,9 milyard manat yönəldiləcəkdir. Hər iki xərc maddəsinin büdcə məxaricində payı təxminən 21 faiz təşkil edir. Yeganə fərq ondan ibarətdir ki, 2026-cı illə müqayisədə təhlükəsizlik xərcləri cəmi 99 milyon manat və ya 1,1 faiz, iqtisadi fəaliyyət xərcləri isə 1,1 milyard manat və ya 13,4 faiz artırılır. Xərclərin bu dinamikası 2027-ci ilin maliyyə sənədini hər bir halda rifah və inkişaf büdcəsi olaraq dəyərləndirməyə imkan verir və belə bir qənaət üçün əsaslar yaradır.



Dövlət maliyyəsinin idarə olunması sistemində institusional islahatlar

Xüsusi olaraq qeyd etməliyik ki, son illərdə dövlət maliyyəsinin idarə olunması sistemində institusional islahatlara başlanılmış, büdcə siyasəti keyfiyyətcə yeni mərhələyə keçmişdir. Hazırda maliyyə intizamının gücləndirilməsi, fiskal dayanıqlığın təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülməkdədir.

Dövlət maliyyəsi sistemində islahatlar büdcənin tərtibini də təkmilləşdirir. Xüsusilə də "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin yaradılması büdcə, xəzinədarlıq, dövlət borcu, mühasibat uçotu, dövlət maliyyə nəzarəti, dövlət müəssisələrinin monitorinqi və digər maliyyə proseslərinin vahid informasiya mühitində birləşdirilməsinə imkan verir.

Bu, sadəcə, texnoloji yenilik deyil, dövlət maliyyəsinin idarə edilməsində şəffaflıq, operativlik və nəzarət imkanlarının keyfiyyətcə yeni mərhələyə keçirilməsidir.

Perspektiv dövrdə büdcə siyasətində və planlaşdırılmasında nəyi nəzərə almaq lazımdır

Bununla belə, aparılmış büdcə müzakirələrinin nəticələrini də nəzərə alaraq, perspektiv dövrdə büdcə prosesində və fiskal siyasətin həyata keçirilməsində nəzərə alınmasını vacib hesab etdiyimiz bəzi fikir və təkliflər də bildirmək istərdik.

Büdcə siyasətində əsas hədəf maliyyə dayanıqlığını qorumaqla yanaşı, həm də davamlı iqtisadi inkişafı təmin etməkdir. Müasir iqtisadiyyatda ayrı-ayrı siyasət tədbirlərinin səmərəliliyi onların vahid iqtisadi strategiya çərçivəsində nə dərəcədə uzlaşdırılmasından asılıdır. Dayanıqlı makroiqtisadi sabitliyə yalnız bir-birini dəstəkləyən və tamamlayan fiskal, monetar və iqtisadi artım siyasəti əsasında nail olmaq mümkündür.

2027-ci il üçün 5,3 faizlik inflyasiya, 2,7 faizlik iqtisadi artım proqnozları fonunda dövlət büdcəsinin parametrləri fiskal siyasətə bir qədər sərt məzmun verir. Növbəti illərdə iqtisadi fəallığın yüksəldilməsi, büdcə gəlir və xərclərinin real olaraq artımının təmin edilməsi baxımından fiskal parametrlərin inflyasiya və iqtisadi artım tempi ilə daha sıx uzlaşdırılmasını vacib hesab edirik.

Xarici borcun ümumi dövlət borcundakı minimal payı bizi arxayınlaşdırmamalıdır

Xarici borcun ümumi dövlət borcundakı payının 32 faiz təşkil etməsinə baxmayaraq, hökumət tərəfindən onun orta-müddətli perspektivdə mərhələli azaldılması və daxili borcla əvəz edilməsi strategiyası davam etdiriləcəkdir. Bu yanaşmanı əsaslı hesab edirik. Çünki xarici borcun büdcəyə yükü təkcə onun nominal həcmi və ÜDM-də payı ilə yox, həm də borcun valyuta tərkibi, faiz yükü, ödəmə müddətləri və borca xidmət xərcləri ilə müəyyən olunur.

Azərbaycanın iqtisadi strukturu və valyuta gəlirlərinin (neft dolları) xarakterinə görə, xarici borcun yüksək səviyyəsi potensial riskdir, çünki valyuta gəlirləri neft qiymətlərindən asılıdır. Bu səbəbdən daxili borcun payının 60-70 faiz, xarici borcun payının 30-40 faiz səviyyəsində saxlanması rasional hesab olunur.

Büdcə daxilində xərclərin yenidən prioritetləşdirilməsi nə üçün zəruridir

Bir mühüm məsələyə də diqqət yetirmək vacibdir. Büdcə imkanlarının məhdud olduğu, eyni zamanda yeni maliyyə ehtiyaclarının yarandığı şəraitdə ilk addım həmişə əlavə maliyyə mənbələri axtarmaq olmamalıdır. Hər yeni prioritet istiqamət mütləq yeni xərc demək deyil. Bəzən daha düzgün yanaşma mövcud büdcə daxilində prioritetlərin yenidən müəyyən edilməsidir. Bu, beynəlxalq təcrübədə xərclərin yenidən prioritetləşdirilməsi adlanır. Çoxsaylı və təxirəsalınmaz maliyyə ehtiyaclarını qarşılamaqda olan və hətta əsas xərc prioritetlərini müəyyən etmiş Azərbaycan üçün bu yanaşmanın nəzərə alınmasının praktiki əhəmiyyəti vardır.

Fiskal konsolidasiya ilə nəticə əsaslı büdcəyə keçid prosesinin sürəti uzlaşdırılmalıdır

Proqram və nəticə əsaslı büdcə mexanizminin tətbiqi dövlət maliyyə sistemində islahatların əsas istiqamətlərindən birini təşkil edir. Bu mexanizmin əhatə etdiyi sektorların sayı səkkizə çatdırılmışdır. 2027-ci ilin büdcə zərfində bu sektorlar üzrə 54 dövlət proqramının maliyyələşdirilməsinə 13,9 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu, müsbət institusional dəyişiklikdir. Lakin hesab edirik ki, sektorların sayının artırılması ilə yanaşı, büdcə vəsaitlərinin nəticə əsaslı idarə olunmasının keyfiyyəti də yüksəldilməlidir.

Bu qənaətdəyik ki, fiskal konsolidasiya siyasəti ilə nəticə əsaslı büdcəyə keçid arasında daha sıx əlaqə yaradılmalıdır. 2025-ci ildə nəticə əsaslı büdcə üzrə maliyyələşmə həcmi 6,1 milyard manata çatmışdır ki, bunun da ümumi büdcə xərclərində payı 15,8 faiz təşkil edir. Konsolidasiya prosesinin sürəti nəticə əsaslı büdcə mexanizminin tətbiqinin də sürətləndirilməsini zəruri edir. Bu iki istiqamətin daha sıx əlaqələndirilməsi büdcə vəsaitlərinin səmərəliliyinin yüksəldilməsinə əlavə imkanlar yarada bilər.

Digər mühüm məsələ büdcənin təsdiq edilmiş parametrləri ilə onun faktiki icrası arasında uyğunluğun təmin edilməsidir. Hesab edirik ki, fiskal konsolidasiya tədbirlərinin əsas istiqamətləri büdcənin planlaşdırılması mərhələsində müəyyən edilməli, icra prosesində isə təsdiq olunmuş xərc proqramlarının ardıcıllığı və proqnozlaşdırıla bilməsi mümkün qədər qorunmalıdır.

Büdcə xərclərinin azaldılması ilə onların səmərəliliyinin artırılması eyni anlayışlar deyil. Xərclərin azaldılması fiskal göstəriciləri yaxşılaşdıra bilər. Lakin bu, avtomatik olaraq dövlət vəsaitlərindən istifadənin səmərəliliyinin yüksəldilməsi demək deyil.

Xərclərin optimallaşdırılması zamanı dövlət investisiyalarının multiplikativ effektini nəzərə almalıyıq

Büdcə müasir bazar iqtisadiyyatı şəraitində yalnız maliyyə planı deyil, həm də iqtisadiyyatın tənzimlənməsi alətidir. Dövlət investisiyaları, iqtisadi fəaliyyətə yönəldilən xərclər, sahibkarlığa və infrastruktura dəstək vasitəsilə büdcənin iqtisadi artıma, investisiya fəallığına və yeni iqtisadi imkanların formalaşmasına təsirini artırmalıyıq.

Xüsusi olaraq qeyd etməliyik ki, dövlət investisiyaları neft sektoru ilə yanaşı, uzun illər ərzində iqtisadi artımın mühüm hərəkətverici qüvvəsi olmuşdur. Ona görə də büdcə xərclərinin optimallaşdırılması zamanı multiplikativ təsirləri olan xərc maddələrinin iqtisadi artıma, məşğulluğa və özəl sektora təsiri qiymətləndirilməlidir. Nəzərə almalıyıq ki, bütün xərc maddələrinin iqtisadi nəticəsi eyni deyil. Bəzi xərclərin azaldılması qısamüddətli büdcə qənaəti yaratsa da, uzunmüddətli perspektivdə iqtisadi itkilərə səbəb ola bilər.

Beynəlxalq Valyuta Fondu inkişaf etməkdə olan ölkələr üçün xərclərin optimallaşdırılmasını tövsiyə etməklə yanaşı, dövlət investisiyalarının qorunmasını ayrıca vurğulayır. Nəzərə almalıyıq ki, fiskal intizam investisiyadan imtina deyil, aşağı məhsuldar xərclə gələcək artımı yaradan xərc arasında seçim etməkdir. Bu, xüsusilə böyük infrastruktur proqramları həyata keçirən ölkəmiz üçün əhəmiyyətli tezisdir.

Aqrar sahənin maliyyələşdirilməsi nəticə əsaslı büdcə kontekstində

Kənd təsərrüfatının nəticə əsaslı büdcə mexanizminin tətbiq edildiyi 8 sektordan biri olduğunu nəzərə alaraq, aqrar sahənin bu mexanizmlə əlaqələndirilməsini vacib hesab edirik. 2027-ci ilin dövlət büdcəsində kənd təsərrüfatına ayrılan vəsaitlərin həcmi 12,5 faiz və ya 153 milyon manat artaraq təxminən 1 milyard 380 milyon manat təşkil etmişdir. Bu, 2027-ci ildə iqtisadi fəaliyyət xərclərindən sonra ən yüksək artım tempinə malik olan xərc istiqamətidir.

Prezident İlham Əliyev xüsusi olaraq qeyd edir ki, kənd təsərrüfatı bizim üçün iqtisadi, sosial və təhlükəsizlik məsələsidir və hökumət bu sahəyə dəstəyi bundan sonra da davam etdirəcəkdir. Eyni zamanda dövlətin aqrar sahədən böyük gözləntiləri də var.

Bu gözləntilər kənd təsərrüfatına dövlət dəstəyinin səmərəli təşkili, məhsuldarlığın və ixracın artırılması, özünütəminetmə göstəricilərinin yaxşılaşdırılması, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı, kəndin inkişafı və rifahı ilə bağlıdır. Bunları nəzərə alaraq növbəti illərdə aqrar sahənin maliyyələşdirilməsinin nəticə əsaslı büdcə prinsipi ilə daha sıx uzlaşdırılmasını vacib hesab edirik.

Büdcə zərfinin iqtisadi "fəlsəfəsi" ictimaiyyətə aydın izah edilməlidir

Vacib hesab etdiyimiz məsələlərdən biri büdcə zərfinin iqtisadi fəlsəfəsinin, onun əsas prinsiplərinin geniş izah edilməsi ilə bağlıdır. Vətəndaş fiskal dayanıqlıq, büdcə konsolidasiyası kimi anlayışların mahiyyətini bilməlidir. Vətəndaş bilməlidir ki, fiskal dayanıqlıq büdcə siyasətinin məqsədi, yəni dövlətin orta və uzun müddətdə öz maliyyə öhdəliklərini yerinə yetirə bilmək qabiliyyəti, fiskal konsolidasiya isə həmin məqsədə çatmaq üçün vasitələrdən və ya alətlərdən biridir.

Strateji vəzifələrin icrası üçün etibarlı maliyyə təminatı yaradan büdcə zərfi

Aparılmış müzakirələrin nəticələrini nəzərə almaqla bildiririk ki, "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi büdcə qanunvericiliyinin tələblərinə və ölkəmizin strateji inkişaf hədəflərinə cavab verir.

Əsas prinsipləri dayanıqlıq, səmərəlilik və keyfiyyət dəyişiklikləri olan büdcə zərfi növbəti ildə dövlətin prioritet funksiyalarının icrası, milli təhlükəsizlik, iqtisadi inkişaf və sosial rifah üçün etibarlı maliyyə təminatı yaradır.

Azər ƏMİRASLANOV,
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri

(Əvvəli qəzetin 24 noyabr nömrəsində)

Azərbaycan və Rumıniya "Yaşıl Enerji Dəhlizi" layihəsinin icrasını dəyərləndirib



Buxarestdə "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi üzrə nazirlərin 13-cü iclası çərçivəsində energetika naziri Pərviz Şahbazov Rumıniyanın energetika naziri Dumitru Kisəlitsə ilə görüşüb.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə təbii qaz təchizatı, neft və neft məhsullarının ticarəti, eləcə də elektrik enerjisi sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf imkanları müzakirə edilib. Nazirlər "Yaşıl Enerji Dəhlizi" layihəsinin icrası üzrə növbəti addımları və iclasın nəticələrini müzakirə ediblər. Türkiyənin layihəyə qoşulmasının əhəmiyyəti vurğulanıb. Birgə səylərin gücləndirilməsinin vacibliyi qeyd edilib. Görüşdə həmçinin Rumıniyanın "Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan Yaşıl Enerji Dəhlizi" layihəsinə qoşulması perspektivi də nəzərdən keçirilib.

Azərbaycanda ən yüksəkgərginlikli yeni enerji dəhlizi yaradılır

Azərbaycan enerjisistemin mövcud ən böyük və ən yüksəkgərginlikli ötürmə xətlərindən birinin tikintisinə start verilib. "Azərbaycanda Bərpa Olunan Enerji Mənbələrinin Genişləndirilməsi - AZURE" layihəsinin ikinci mərhələsi çərçivəsində Mingəçevirdən Nəvahi istiqamətində 235 kilometr uzunluğunda 500 kilovoltluq yüksəkgərginlikli ötürmə xəttinin çəkilməsinə başlanılıb.





Ölkənin mövcud ən yüksək gərginlik sinfi üzrə inşa edilən 500 kilovoltluq bu xətt enerji sisteminin ötürmə imkanlarının genişləndirilməsi, yeni yaradılan bərpaolunan enerji mənbələrinin təhlükəsiz və etibarlı şəkildə vahid enerjisistemə inteqrasiyası baxımından strateji əhəmiyyət daşıyır. Layihə eyni zamanda Azərbaycanın qərb, mərkəz və şərq regionlarını əhatə edən 500 kilovoltluq dairəvi enerjis xeminin formalaşdırılmasını, enerjinin uzaq məsafələrə daha az itki ilə ötürülməsini təmin edəcək. Bununla yanaşı, enerjisistemdə tezlik və güc balansının tənzimlənməsi, enerji axınlarının çevik idarə olunması imkanlarını genişləndirəcək.

AZURE layihəsinin birinci mərhələsi çərçivəsində bu günədək mühüm infrastruktur işləri həyata keçirilib. "Azərenerji"nin daxili imkanları və bir hissəsi də dövlət büdcəsindən ayrılmış vəsait hesabına ölkənin ən böyük yarımstansiyalarından biri olan - yeni 500/300 kilovoltluq "Nəvahi Yaşıl Enerji Qovşağının" tikintisi başa çatdırılıb. Eləcə də ümumi uzunluğu 245 km-dən artıq olan Nəvahidən Abşerona 500 kilovoltluq, "Biləsuvar" və "Bankə" günəş-elektrik stansiyalarına isə 330 kilovoltluq ötürmə xətlərinin çəkilməsi yekunlaşıb. Nəticədə hər iki günəş-elektrik stansiyasının ölkənin vahid enerjisisteminə qoşulması üçün zəruri infrastruktur yaradılıb və bu istiqamətdə nəzərdə tutulan öhdəliklər yerinə yetirilib.

AZURE layihəsinin ikinci mərhələsində isə Dünya Bankının maliyyə dəstəyi çərçivəsində "Nəvahi Yaşıl Enerji Qovşağı"nın transformator və reaktorlarla təchiz edilməsi, Nəvahiyə Mingəçevir istiqamətində 500 kilovoltluq, Ələt, Abşeron və Qobu istiqamətlərində isə 330 kilovoltluq yeni ötürmə xətlərinin çəkilməsi nəzərdə tutulur. Artıq 500 kV-luq Mingəçevir-Nəvahi xəttinin tikintisinə başlanılıb. 330 kV-luq 3 ötürmə xəttinin inşasına isə yaxın vaxtlarda start veriləcək.

Beləliklə, AZURE layihəsi Azərbaycanın bərpaolunan enerji potensialının reallaşdırılmasına, yüksəkgərginlikli ötürücü infrastrukturun inkişafına və ölkənin enerji təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə mühüm töhfə verəcək.

Nərminə ƏSGƏROVA,
"Azərbaycan"

Türkmənistandakı konfransda Azərbaycanın logistika və tranzit imkanlarından danışılıb

Azərbaycanın Türkmənistandakı səfiri Qismət Gözəlov bu ölkənin Xarici İşlər Nazirliyinin Beynəlxalq Münasibətlər İnstitutunda Ümumdünya Dayanıqlı Nəqliyyat Gününə həsr olunmuş "Mərkəzi Asiya və Azərbaycanın qitələrarası beynəlxalq nəqliyyat marşrutlarının gələcək imkanları" mövzusunda keçirilən konfransda çıxış edib.

Səfirlikdən AZƏRTAC-a bildirilib ki, Q.Gözəlov çıxışında Azərbaycan və Mərkəzi Asiya ölkələrinin xalqlarını birləşdirən ortaq tarixi köklərə, etnik və mədəni bağlara, eləcə də əsrlər boyu formalaşmış dostluq və qardaşlıq münasibətlərinə toxunub. O, ölkələrimiz arasında əlaqələrin qarşılıqlı hörmət, etimad və strateji tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdiyini vurğulayıb.

Regional əməkdaşlıq platformalarından danışan səfir Azərbaycanın BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) və Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı (CAREC) çərçivəsində nəqliyyat sahəsində əməkdaşlıqda iştirak etdiyini bildirib. O, Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının Məşvərət Görüşü formatına tamhüquqlu iştirakçı kimi qoşulmasının regional əməkdaşlığın daha da dərinləşdirilməsi baxımından əhəmiyyətini vurğulayıb. Bu xüsusda Azərbaycanın 2027-ci ildə sözügedən formata sədrliyinin siyasi dialoqun, iqtisadi tərəfdaşlığın, eləcə də nəqliyyat-logistika və energetika sahələrində əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyini qeyd edib.

Səfir Bakı-Tbilisi-Qars dəmir yolunun yükdaşıma qabiliyyətinin artırıldığını, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının illik yükaşırma gücünün genişləndirilməsi istiqamətində işlərin aparıldığını, Ələt limanı ərazisində inşa olunan hava limanının 2027-ci ildə istifadəyə verilməsinin nəzərdə tutulduğunu bildirib.

Nəqliyyat-logistika sahəsində regional əməkdaşlığın iqtisadi inkişaf üçün artan əhəmiyyətini qeyd edən səfir Orta dəhliz çərçivəsində Azərbaycan, Türkmənistan və Qazaxıstanın dəniz limanlarının mühüm roluna diqqət çəkib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında yükdaşımaların genişləndirilməsinin regionun tranzit potensialının artırılmasına töhfə verdiyini diqqətə çatdırıb. Diplomat həmçinin Türkmənistan və Qazaxıstanın enerji resurslarının Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə dünya bazarlarına çatdırılmasında Azərbaycanın tranzit tərəfdaşı kimi roluna toxunub.

25 Noyabr Kəlbəcər Şəhəri Günüdür



Kəlbəcər Zəfərin işığında yenidən qurulur

Prezident İlham Əliyev bu qədim diyarı cənnətə çevirir

Əsrarəngiz təbiəti, zəngin təbii sərvətləri, qədim tarixi və mədəni irsi ilə seçilən Kəlbəcər bu gün öz tarixinin yeni inkişaf mərhələsini yaşayır. Uzun illər işğal altında qalan, dağıntılara və talanlara məruz qoyulan bu qədim yurdda hazırda genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Müasir yaşayış komplekslərinin, sosial obyektlərin, avtomobil yollarının, enerji infrastrukturlarının yaradılması, iqtisadi potensialın hərəkətə gətirilməsi Kəlbəcərin gələcək inkişafının möhkəm təməllərini formalaşdırır. Doğma torpaqlarına qayıdan rayon sakinlərinin sevinci, illərlə həsrətində olduqları yurdlarında yeni həyata başlamaları Azərbaycanın tarixi Zəfərinin ən mühüm nəticələrindən biridir. Bu baxımdan 25 Noyabr - Kəlbəcər Şəhəri Günü xalqımız üçün böyük tarixi və mənəvi əhəmiyyət daşıyır.



1993-cü il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində rayonun dinc əhalisi ağır faciələrlə üzləşmiş, 511 nəfər öldürülmüş, 321 nəfər əsir götürülmüş və ya itkin düşmüşdür. On minlərlə insan öz doğma yurdundan didərgin düşərək məcburi köçkün həyatı yaşamağa məhkum olunmuşdur. İşğal illərində rayonun tarixi-mədəniyyət abidələri, təhsil və səhiyyə müəssisələri, kitabxanaları, muzeyləri, mədəniyyət evləri, inzibati binaları və minlərlə yaşayış evi dağıdılmış, təbii sərvətləri qanunsuz istismar edilmişdir. Kəlbəcərin zəngin flora və faunasına, meşə örtüyünə, su ehtiyatlarına ciddi ziyan vurulmuşdur. Bütün bunlar işğalın yalnız humanitar deyil, həm də iqtisadi, ekoloji və mədəni nəticələrinin nə qədər ağır olduğunu göstərir.

Kəlbəcərin işğalından sonra - 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurası 822 saylı qətnamə qəbul etmişdir. Sənəddə işğalçı qüvvələrin Kəlbəcərdən və Azərbaycanın digər işğal olunmuş ərazilərindən dərhal çıxarılması tələb edilirdi. Lakin uzun illər ərzində qətnamənin tələbləri yerinə yetirilməmiş, onun icrasını təmin edəcək təsirli beynəlxalq mexanizmlər işə salınmamışdır. Üstəlik, 1999-cu ildən etibarən Kəlbəcər ərazisində qanunsuz məskunlaşdırma siyasətinə başlanılmışdır. Bu proses işğal olunmuş ərazilərin demoqrafik mənzərəsinin dəyişdirilməsinə yönəlmişdi. Azərbaycan isə bütün bu illər ərzində öz ərazi bütövlüyünün bərpası istiqamətində ardıcıl siyasi və diplomatik fəaliyyət göstərmiş, beynəlxalq hüquqa əsaslanan mövqeyindən geri çəkilməmişdir.

2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Qələbə Kəlbəcərin də işğaldan azad edilməsini təmin etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Vətən müharibəsinin ilk günlərində Kəlbəcərin şimal hissəsində strateji yüksəkliklərin Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçməsi hərbi əməliyyatların sonrakı gedişinə mühüm təsir göstərdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Biz Kəlbəcərin şimal hissəsində strateji yüksəklikləri götürərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə böyük dərəcədə məhdudlaşdıra bildik və faktiki olaraq onlar Basarkeçər-Kəlbəcər yolundan istifadə edə bilmədilər".

Vətən müharibəsində əldə olunan Qələbənin nəticəsi olaraq imzalanmış 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verildi. Beləliklə, Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi. Rayonun hərbi əməliyyatların davam etdirilməsinə ehtiyac qalmadan geri qaytarılması əlavə insan itkilərinin qarşısının alınması baxımından da mühüm əhəmiyyət daşıdı. Bununla belə, ərazini tərk edən qanunsuz məskunlaşdırılmış şəxslərin evləri yandırması, ağacları kəsməsi və müxtəlif mülki obyektləri dağıtması işğalın son günlərində də bölgənin maddi və təbii sərvətlərinə ziyan vurulduğunu göstərdi. Bu əməllər beynəlxalq humanitar hüquq normaları baxımından ciddi məsuliyyət doğuran hallardır.

Kəlbəcərin azad olunması Azərbaycan xalqının tarixi yaddaşında əbədi yaşayacaq hadisələrdən biridir. Prezident İlham Əliyevin 2023-cü il 31 iyul tarixli sərəncamı ilə Azərbaycanın işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi bu tarixi hadisələrin əbədiləşdirilməsinə xidmət edir. Sərəncama əsasən, 25 Noyabr Kəlbəcər Şəhəri Günü kimi müəyyən olunmuşdur. Bu əlamətdar gün yalnız torpaqlarımızın işğaldan azad edilməsinin ildönümü deyil, həm də milli birliyimizin, dövlətimizin qüdrətinin, xalqımızın sarsılmaz iradəsinin və doğma yurda bağlılığının təcəssümüdür.

Bu gün Kəlbəcərdə həyata keçirilən genişmiqyaslı quruculuq işləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin inkişafına yönəlmiş dövlət siyasətinin mühüm tərkib hissəsidir. Qarşıya qoyulan əsas məqsəd təkcə dağıdılmış yaşayış məntəqələrinin bərpası deyil, həm də müasir şəhərsalma prinsiplərinə əsaslanan, dayanıqlı iqtisadiyyata, inkişaf etmiş infrastruktura və yüksək sosial rifaha malik yaşayış mühitinin yaradılmasıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli qərarı ilə təsdiqlənmiş "Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"na əsasən, 2040-cı ilədək şəhərin ərazisinin 290 hektara yaxın, əhalisinin sayının isə 17 min nəfər olması planlaşdırılır. Şəhər ərazisinin təxminən 22 faizini yaşıllıqlar təşkil edəcək, 60 hektar sahədə müxtəlif yaş və sosial qrupların istirahəti üçün yaşıllıq zolaqları yaradılacaq. Ölkənin digər şəhərlərində ümumi istifadədə olan yaşıllıq sahəsinin adambaşına düşən norması 7-10 kvadratmetr nəzərdə tutulduğu halda Kəlbəcərdə bu göstəricinin 33 kvadratmetrə çatdırılması planlaşdırılır.

"Böyük qayıdış" proqramı çərçivəsində Kəlbəcərdə məskunlaşma prosesi də mərhələli şəkildə davam etdirilir. Bu rayonda artıq 162 ailə, yəni 681 nəfər məskunlaşıb. Doğma torpaqlarına qayıdan sakinlərin məşğulluğunun təmin edilməsi, onların müasir sosial xidmətlərdən yararlanması və iqtisadi fəaliyyətə cəlb olunması bölgədə dayanıqlı məskunlaşmanın əsas şərtlərindəndir.

Kəlbəcərin sosial-iqtisadi inkişafını sürətləndirən ən mühüm amillərdən biri müasir nəqliyyat infrastrukturunun yaradılmasıdır. Bu baxımdan ümumi uzunluğu 82 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi xüsusi strateji əhəmiyyətə malikdir. Müxtəlif texniki dərəcələrə uyğun inşa edilən yolun üzərində ümumi uzunluğu 25,9 kilometr olan beş tunel yerləşir. Layihənin 56 kilometrini Toğanalı-Kəlbəcər, 26 kilometrini isə Kəlbəcər-İstisu hissəsi təşkil edir. Avtomobil yolunun tikintisinin 89 faizi tamamlanmışdır. Yolun üzərində inşa edilmiş 11,7 kilometr uzunluğundakı Murovdağ tunelinin texniki açılışı da Azərbaycanın mühəndislik və infrastruktur quruculuğu sahəsində mühüm nailiyyətlərindən biridir. Dünyanın ən uzun avtomobil tunellərindən biri olan dördzolaqlı Murovdağ tuneli mürəkkəb dağlıq relyef şəraitində nəqliyyat əlaqələrinin daha təhlükəsiz və əlverişli təşkilinə imkan verəcək.

Kəlbəcərin zəngin su ehtiyatları rayonun "yaşıl enerji" potensialının inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır. Meydan çayı üzərində yerləşən 3,4 meqavat gücündə kiçik su-elektrik stansiyası tamamilə yenidən qurulub. Bununla yanaşı, 8,33 meqavat gücündə "Çıraq-1", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,6 meqavat gücündə "Çıraq-2" kiçik su-elektrik stansiyaları bərpa edilib. Rayonda həmçinin 8,6 meqavat gücündə "Aşağı Vəng", 8,8 meqavat gücündə "Nadirxanlı" və 5 meqavat gücündə "Çaykənd" kiçik su-elektrik stansiyaları tikilib. Bu layihələr bölgənin enerji təminatının gücləndirilməsi ilə yanaşı, Azərbaycanın bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsinə və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsinə mühüm töhfə verir.

Kəlbəcərin iqtisadi inkişaf perspektivləri sırasında sağlamlıq turizmi xüsusi yer tutur. Rayonun füsunkar dağ mənzərələri, zəngin mineral və termal su ehtiyatları burada beynəlxalq səviyyəli turizm infrastrukturunun yaradılmasına əlverişli şərait formalaşdırır. Bu istiqamətdə həyata keçirilən ən mühüm layihələrdən biri ümumi sahəsi 80 min kvadratmetr təşkil edəcək "İstisu" Müalicə-İstirahət Kompleksidir. Kompleksin ərazisində 145 nömrəsi olan hotel binasının, 10 kottecin və 5 inzibati binanın tikintisi nəzərdə tutulur. Müasir SPA mərkəzində mineral sularla və palçıqla müalicə və klimatoterapiya xidmətlərinin göstərilməsi planlaşdırılır. Kompleksin fəaliyyəti Kəlbəcərin sağlamlıq turizmi məkanı kimi beynəlxalq səviyyədə tanıdılmasına, yeni iş yerlərinin açılmasına və bölgənin iqtisadi potensialının genişləndirilməsinə xidmət edəcək.

Kəlbəcərin iqtisadi həyatının canlanmasının digər mühüm göstəricisi "İstisu" mineral su zavodunun fəaliyyətə başlamasıdır. Dəniz səviyyəsindən 1600 metrdən çox yüksəklikdə yerləşən termal su yataqlarından çıxan, təbii temperaturu 60 dərəcədən yüksək olan "İstisu" mineral suyu zəngin mineral tərkibi ilə seçilir. Təməli 2022-ci il iyunun 26-da Prezident İlham Əliyev tərəfindən qoyulan zavodun tikintisi 2024-cü ildə başa çatdırılıb. Müəssisənin illik istehsal gücü 100 milyon şüşə butulkadan artıqdır. İkinövbəli iş rejimində fəaliyyət göstərən zavodda təxminən 100 nəfər işlə təmin olunub. İşçilərin əksəriyyətinin Kəlbəcər və Laçın rayonlarının sakinləri olması müəssisənin yerli əhalinin məşğulluğuna verdiyi töhfəni nümayiş etdirir. "İstisu" brendinin yenidən istehlakçılara təqdim olunması həm də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində istehsal ənənələrinin bərpasının rəmzi ifadəsidir.

25 Noyabr - Kəlbəcər Şəhəri Günü tarixi ədalətin bərpasının, milli həmrəyliyin və Azərbaycanın yenilməz iradəsinin təntənəsidir. Vaxtilə həsrətin, ayrılığın və məcburi köçkünlüyün ünvanına çevrilmiş Kəlbəcər bu gün qayıdışın, quruculuğun və tərəqqinin rəmzidir. Zəfərimizin açdığı yeni tarixi mərhələdə Kəlbəcər öz təbii gözəllikləri, iqtisadi imkanları və müasir infrastrukturu ilə Azərbaycanın ən perspektivli bölgələrindən birinə çevrilməkdədir. Bu torpaqların dirçəlişi Azərbaycanın Zəfərlə yazdığı tarixinin quruculuqla davam etdirilən şanlı səhifəsidir.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

İrəvan tarixi seçim qarşısında

Qarşıdan gələn referendumda veriləcək qərar erməni cəmiyyətinin təcrid siyasəti ilə, yaxud regional tərəqqi ilə yoluna davam edəcəyini qətiləşdirəcək

Azərbaycanın qətiyyətli siyasəti və suverenliyini tam bərpa etməsi ilə Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlar öz məntiqi bəhrəsini verməkdədir. İllərdir davam edən münaqişə səhifəsinin bağlanması və regionda sülhün hüquqi müstəvidə rəsmiləşdirilməsi istiqamətində rəsmi Bakının irəli sürdüyü prinsipial tələblər İrəvan rəsmiləri tərəfindən konkret addımlarla qarşılanır. Ermənistanın baş naziri Nikol Paşinyanın yeni konstitusiya layihəsini ictimaiyyətə təqdim etməsi və bununla bağlı xalqa müraciət ünvanlaması bölgədə davamlı sabitliyə aparan yolda mühüm mərhələ kimi dəyərləndirilir.

Yalnız bu halda Cənubi Qafqazda dayanıqlı sülhə nail oluna bilər

İki ölkə arasında hazırda de-fakto sülh mühiti hökm sürür və sərhəddə sabitlik qorunur. Lakin bu reallığın yekun sülh müqaviləsi ilə möhkəmləndirilməsi üçün rəsmi Bakı hər zaman konkret və dəyişməz şərt irəli sürüb. Prosesin məntiqi sonluğa çatdırılması üçün sülh müqaviləsi imzalanmalı və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır. Yalnız Ermənistan konstitusiyasında və digər normativ-hüquqi sənədlərdə dəyişikliklər edildiyi halda Cənubi Qafqazda dayanıqlı sülhə nail oluna bilər.

Xatırladaq ki, ötən il 8 avqust tarixli Vaşinqton Sammitində sülh müqaviləsinin mətni paraflanıb, iki ölkə arasında Birgə Bəyannamə imzalanıb, telekommunikasiyaların açılması istiqamətində mühüm razılaşmalar əldə edilib. Həmin tarixdə Ağ Evdə yekun sülh sazişinin imzalanmamasının yeganə səbəbi Ermənistan konstitusiyasının preambula hissəsində müstəqillik bəyannaməsinə istinadən ərazi iddialarının yer almasıdır.

Ermənistanın təqdim olunan yeni konstitusiya layihəsində diqqətçəkən ən mühüm məsələ də məhz budur. Sənəddə Azərbaycanın Qarabağ bölgəsinin Ermənistana birləşdirilməsinə çağırış edən və Türkiyəyə qarşı ərazi iddialarını ehtiva edən 1990-cı il Müstəqillik Bəyannaməsinə istinad tamamilə çıxarılıb. Bundan əlavə, layihənin 8-ci maddəsində Ermənistanın xarici siyasətinin əsas məqsədinin sülhün təmin edilməsi olduğu təsbit edilib.

Rəsmi Bakının bu prosesə yanaşması tamamilə aydın və beynəlxalq hüquqa söykənir. Azərbaycan tərəfi konstitusiya islahatlarının məzmunu və daxili idarəetmə mexanizmləri ilə bağlı məsələləri Ermənistanın suveren daxili işi hesab edir və bu prosesə müdaxilə etmək niyyətində deyil. Ölkəmizi maraqlandıran yeganə prinsipial məqam qonşu dövlətin qanunvericiliyində Azərbaycana qarşı ərazi iddialarına zəmin yaradan revanşist müddəaların birdəfəlik aradan qaldırılmasıdır. Əgər bu müddəalar eynilə qalarsa, gələcəkdə yenidən torpaqlarımıza qarşı ərazi iddialarının baş qaldırılmayacağına heç kəs zəmanət vermir.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov noyabrın 23-də italiyalı həmkarı Antonio Tayani ilə birgə keçirdiyi mətbuat konfransında məsələ ilə bağlı bildirib: "Ölkəmiz dəfələrlə bəyan edib ki, Ermənistan öz konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarını aradan qaldırdıqdan sonra sülh sazişinin imzalanması mümkün olacaq".

Nazir vurğulayıb ki, bu gün Ermənistanda çox önəmli bir inkişaf baş verdi: "Ermənistanın baş naziri konstitusiya mətnini ictimaiyyətə açıqladı. Azərbaycan üçün maraqlı olan məqam ondan ibarətdir ki, yeni Konstitusiya layihəsində bu cür iddiaların yer almadığını müşahidə edirik. Bu, müsbət haldır, inkişafdır. Sözügedən məsələ öz yekun həllini tapdıqdan sonra sülh sazişinin imzalanması mümkün olacaq".

Yeni inkişaf perspektivləri

İrəvandakı siyasi proseslərin gedişi bu dəyişikliyin həm də Ermənistanın öz daxili böhranından çıxış yolu olduğunu göstərir. Xalqa müraciətində əvvəlki konstitusiya referendumlarının saxtalaşdırıldığını etiraf edən Nikol Paşinyan cəmiyyətlə dövlət arasında hüquqi uçurum yarandığını deyib. O, yeni konstitusiyanın qəbulundan dərhal sonra Azərbaycanla sülh sazişinin imzalanacağını və ratifikasiya ediləcəyini bəyan edib: "Amma vətəndaşla ölkədə formalaşmış hüquqi qaydalar arasında üzvi əlaqə mövcud deyil. Bunun səbəbi isə əvvəlki bütün konstitusiyaların ictimaiyyətin geniş şəkildə qəbul etdiyi formada, vətəndaşların azad iradə ifadəsi ilə qəbul edilməməsidir. Bu referendumların nəticələri saxtalaşdırılıb".

Lakin prosesin parlament mərhələsində və ümumxalq səsverməsində necə nəticələnəcəyi həm Ermənistan siyasi elitası, həm də cəmiyyəti üçün ciddi sınaqdır. Paşinyan sülh yolunda əsas əngəl kimi gördüyü parlament müxalifətini siyasi məsuliyyəti bölüşməyə çağıraraq, karyerasını ortaya qoyan bəyanatla çıxış edib: "Əgər xalq yeni konstitusiyaya qarşı səs versə, yəni arqumentlərim ictimaiyyətimizi inandırmasa, referendumun nəticələrinin rəsmi elanından sonra bir həftə ərzində istefa verəcəyəm".

Əksinə, sənəd qəbul olunarsa, Paşinyan növbəti dəfə baş nazir postuna namizədliyini irəli sürməyəcək. Bu gediş müxalifəti öz iddialarının girovuna çevirərək referendumun keçirilməsi üçün parlamentdə zəruri səslərin təmin edilməsinə hesablanıb.

Ermənistanda konstitusiya islahatları ətrafında yaranan bu siyasi-hüquqi dinamika təkcə ikitərəfli münasibətlərin normallaşmasına deyil, həm də bütövlükdə Cənubi Qafqazın gələcək təhlükəsizlik arxitekturasının möhkəmlənməsinə xidmət edir. Uzun illər ərzində münaqişə və qarşılıqlı inamsızlıq səbəbindən regional əməkdaşlıq imkanlarından kənarda qalan Ermənistan üçün bu addım həm də iqtisadi dirçəliş və qonşularla normal inteqrasiya şansı deməkdir. Sülh sazişinin imzalanması regionda sabitliyi dönməz etməklə yanaşı, bütün tərəflər üçün yeni inkişaf perspektivləri açacaq.

Bir sözlə, Azərbaycan öz üzərinə düşən tarixi missiyanı yerinə yetirərək bölgədə sülh və əməkdaşlıq üçün zəmin yaradıb. İndi isə növbə təkcə Ermənistan hakimiyyətinin deyil, bütövlükdə erməni xalqınındır. Qarşıdan gələn referendumda veriləcək qərar erməni cəmiyyətinin keçmişin ərazi iddiaları və təcrid siyasəti ilə, yaxud qonşularla dinc yanaşı yaşamaq və regional tərəqqi ilə yoluna davam edəcəyini qətiləşdirəcək.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Ağdərə və Xocalı sakinləri mina təhlükəsi ilə bağlı maarifləndirilib

Doğma yurduna qayıtmağa hazırlaşan və işğaldan azad edilmiş ərazilərdə yeni salınmış yaşayış məntəqələrində məskunlaşan əhali arasında Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən aparılan məlumatlandırma, təbliğat-izahat və maarifləndirmə işləri çərçivəsində onlara sosial müdafiə tədbirləri, o cümlədən vahid aylıq müavinətin qanunvericilikdə nəzərdə tutulan başaçatma müddətləri, müddətin axımı, habelə bunun qanuniliyi və zəruriliyi məsələləri ətraflı izah edilir.

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, bununla əlaqədar olaraq, növbəti tədbir Ağdərə rayonunun Çıldıran, Vəngli və Xocalı rayonunun Xanabad, Xanyurdu, Badara kəndlərinə köçürülən ailələr arasında keçirilib.

Tədbirdə məcburi köçkünlərin sosial müdafiəsi məsələləri və mina təhlükəsi haqqında hazırlanmış videoçarxlar nümayiş etdirilib. Mina təhlükəsi ilə bağlı hazırlanan videoçarx insanları ayıq-sayıq olmağa, xəbərdarlıq nişanlarının tələblərinə əməl etməyə çağırır, sosial müdafiə məsələləri haqqında videoçarx isə vahid aylıq müavinətin qanunvericilikdə nəzərdə tutulan hallarını izah edir. Bu videoçarxlar mediada da mütəmadi olaraq yayımlanır.

Qeyd edək ki, məcburi köçkünlərlə iş sahəsində dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri onların sosial müdafiəsinin səmərəli təşkilidir. Həmçinin Prezident İlham Əliyevin tapşırığına əsasən, doğma yurda geri dönən keçmiş məcburi köçkünlərin rahatlığının və təhlükəsizliyinin təmin edilməsi prioritet məsələlərdəndir. "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunda keçmiş məcburi köçkünlər üçün bir sıra sosial müdafiə tədbirləri nəzərdə tutulur. Bunlardan biri də sosial müdafiəyə ehtiyacı olan məcburi köçkünlərin yararlandığı, dövlət büdcəsinin vəsaiti hesabına ödənilən vahid aylıq müavinətdir.

Xatırladaq ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində dövlət komitəsi tədbirlər planına uyğun olaraq aidiyyəti şöbə, yerli nümayəndəliklər və mənzil-kommunal istismar sahələri tərəfindən məcburi köçkünlərlə görüşlər keçirilir, sosial müdafiə tədbirlərinə dair məlumat kitabçaları və broşürlər hazırlanaraq məcburi köçkünlərə təqdim olunur.

Qış qapıdadır

Əlaqədar qurumların imtahanı başlayır



Payız yavaş-yavaş öz yerini qışa verməyə hazırlaşır. Ağacların yarpaqları budaqlardan qopub torpağa qarışdıqca havanın nəfəsi də dəyişir. Səhərlər daha soyuq, axşamlar uzun, küləklər isə bir qədər sərt olur. Təbiətin bu xəbərdarlığı ölkə gündəminin qarşısına vacib bir sual qoyur: Azərbaycan qışı qarşılamağa nə dərəcədə hazırdır?

Qış, sadəcə, bir fəslin dəyişməsi deyil. O, şəhərlərin küçələrindən kənd yollarına, yaşayış binalarından məktəb və xəstəxanalara qədər həyatın bütün sahələri üçün, necə deyərlər, sınaq dövrüdür. Qışın soyuğu nə qədər amansız olsa da, insanların gündəlik həyatının öz axarında davam etməsi məhz bu xidmətlərin etibarlı fəaliyyətindən asılıdır. Necə deyərlər, qış başlamazdan əvvəl görülən hazırlıq işləri soyuğun gətirə biləcəyi çətinliklərə qarşı bir növ qabaqlayıcı sipər rolunu oynayır. Bu baxımdan mövsümə hazırlıq dövlət qurumlarının qarşısında duran əsas vəzifələrdəndir.

2026-2027-ci illərin payız-qış mövsümü ərəfəsində ölkənin əlaqədar qurumları müxtəlif istiqamətlərdə hazırlıq tədbirləri həyata keçiriblər. İstilik xətlərinin yenilənməsi, qazanxanaların təmiri, təhsil müəssisələrində istilik sistemlərinin yoxlanılması, paytaxtın kommunal xidmətlərinin qar və şaxtaya hazırlanması bu işlərin əsas istiqamətləridir.

Bəs bütün bunlar qışın mümkün çətinlikləri qarşısında nə dərəcədə etibarlı təminat yaradır? Görülən işlərin miqyası nə qədər böyükdür və qarşıdakı aylarda hansı məsələlər diqqət mərkəzində saxlanılmalıdır? Rəsmi qurumların açıqladığı məlumatlar əsasında ölkənin qışa hazırlıq mənzərəsinə nəzər salaq.

İstilik təsərrüfatı qış sınağından çıxacağına söz verir

Qış gələnə yaxın insanların ilk düşündüyü məsələlərdən biri evlərində istiliyin olub-olmayacağıdır. Çöldə şaxta hökm sürərkən mənzildə isti radiatorun verdiyi rahatlığın nə demək olduğunu yəqin ki, hər kəs yaxşı bilir. Məhz buna görə istilik təsərrüfatının qışa hazırlığı mövsümöncəsi tədbirlərin ən vacib istiqamətlərindən sayılır. "Azəristiliktəchizat" ASC-nin məlumatına görə, ölkənin 2026-2027-ci illərin payız-qış mövsümünə hazırlığı çərçivəsində istilik təsərrüfatında genişmiqyaslı təmir və yenilənmə işləri aparılıb. Belə ki, 12 min 153 metr istilik xətti yenilənib, 5458 kvadratmetr sahədə izolyasiya örtüyü bərpa edilib. Eyni zamanda 30 qazan aqreqatı əsaslı, 182-si isə cari təmir olunub. 1131 qazanın qızma səthi mexaniki üsulla təmizlənib.

Bu rəqəmlərin hər biri istilik sisteminin daha etibarlı işləməsinə, qışın ən soyuq günlərində mümkün nasazlıqların və fasilələrin qarşısının alınmasına hesablanmış işlərin göstəricisidir. Çünki istilik təsərrüfatında hər xətt, hər qazanxana minlərlə insanın gündəlik rahatlığı ilə birbaşa bağlıdır. Qeyd edək ki, "Azəristiliktəchizat" ASC-nin balansında 549 qazanxana, 87 istilik məntəqəsi və 2 yüksəldici nasos stansiyası fəaliyyət göstərir. Bu infrastruktur vasitəsilə ölkə üzrə çoxsaylı yaşayış binalarının, təhsil və səhiyyə müəssisələrinin istiliklə təmin olunması nəzərdə tutulur.

Artıq istilik mövsümünə start verilib. İqlim şəraiti nisbətən soyuq olan 18 rayonda istilik verilişi noyabrın 1-dən, Bakı şəhərində və respublikanın bir çox digər ərazilərində isə noyabrın 15-dən həyata keçirilir. Paytaxtda və əksər ərazilərdə istilik mövsümünün 2027-ci il aprelin 15-dək davam etməsi planlaşdırılır.

Məktəb və uşaq bağçalarında isti otaqlar

Qışın soyuğu hamıya eyni cür təsir etmir. Xüsusilə uşaqlar üçün isti və sağlam mühitin yaradılması daha böyük diqqət tələb edir. Günün böyük hissəsini məktəb və bağçalarda keçirən minlərlə uşağın qış aylarında isti, rahat və sağlam mühitdə olması mövsümə hazırlığın ən həssas məqamlarındandır.

Elm və Təhsil Nazirliyinin noyabrın 18-də yaydığı məlumata görə, təhsil müəssisələrinin istilik sistemlərinin mövcud vəziyyəti araşdırılıb, qazanxana və istilik sistemlərinin texniki sazlığı yoxlanılıb, aşkar edilən nasazlıqların aradan qaldırılması istiqamətində tədbirlər görülüb. 214 məktəb və 151 məktəbəqədər təhsil müəssisəsində istilik təminatı mərkəzləşdirilmiş qaydada təşkil olunub. Odun yanacağından istifadə edən bütün təhsil müəssisələrində pellet yanacağına keçid təmin edilib. Ümumilikdə 1438 müəssisə 9209 pellet sobası ilə təchiz olunub. Məlumat üçün bildirək ki, pellet yanacağı ağac yonqarı, taxta qırıntıları, mişar tozu və digər biokütlə tullantılarının yüksək təzyiq altında sıxılaraq kiçik silindrik qranullar formasına salınması ilə əldə edilən bərk yanacaq növüdür. Pellet təhsil müəssisələrinin daha qənaətli və ekoloji cəhətdən nisbətən təmiz istiliklə təmin olunmasına imkan yaradır.

Bununla yanaşı, 176 təhsil müəssisəsində qazlaşdırma işlərinə başlanılıb. Onlardan 144-də işlər tamamlanıb, 32 müəssisədə isə davam etdirilir. Qazlaşdırılması yekunlaşmayan obyektlərdə alternativ istilik avadanlıqlarından istifadə olunur. Ümumilikdə il ərzində 743 təhsil müəssisəsində istilik sisteminin təmiri həyata keçirilib. Nazirlik şaxtalı havalarda yarana biləcək texniki problemlərin operativ həlli üçün regionlarda aidiyyəti qurumlarla birgə xüsusi qrupların yaradıldığını da açıqlayıb.

Bütün bunlar təhsil infrastrukturunun qışa hazırlanması istiqamətində kifayət qədər geniş iş aparıldığını göstərir. Ancaq burada bir məqamı yaddan çıxarmaq olmaz: məktəbdə istiliyin olması, sadəcə, texniki göstərici deyil. Bu, şagirdin dərsə diqqətini, müəllimin iş şəraitini, uşaqların sağlamlığını müəyyənləşdirən amillərdəndir. İsti sinif otağı təhsilin keyfiyyətinə xidmət edir.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi də tabeliyindəki təhsil müəssisələrində istilik sistemlərinin vəziyyətinin yoxlanıldığını, dam örtükləri, pəncərə şüşələri və giriş qapılarının monitorinqinin aparıldığını bildirib. Qurumun məlumatına görə, istilik təminatında yarana biləcək problemlərin operativ həlli üçün müvafiq tədbirlər görülüb. Bu məsələlərlə bağlı müraciətlər üçün 146-1 Çağrı Mərkəzi fəaliyyət göstərir.

Paytaxtın kommunal xidmətləri qışa hazırlaşır

Qışın başqa bir üzü də var: qar, buz, sürüşkən yollar, hərəkətə mane olan küləklər və bəzən saatlarla davam edən boran, çovğun. Xüsusilə Bakı kimi böyük şəhərlərdə intensiv qar yağması nəqliyyatın hərəkətini çətinləşdirir, küçə və məhəllələrdə gündəlik həyatı poza bilir.

Paytaxtın qışa hazırlığı bu baxımdan diqqət mərkəzindədir. Bakı Şəhər İcra Hakimiyyətinin noyabrın 17-də yaydığı məlumata görə, şəhərin bütün rayonlarında qarlı havalara hazırlıq tədbirləri davam etdirilir. Rayon kommunal xidmətlərinin xüsusi təyinatlı texnikaları hazır vəziyyətə gətirilib, bir sıra yaşayış və qeyri-yaşayış binalarında təmir işləri aparılıb. Nərimanov, Binəqədi və Nəsimi rayonlarında keçirilən müşavirələrdə kommunal təsərrüfatın, təhsil müəssisələrinin və digər aidiyyəti qurumların hazırlıq vəziyyəti müzakirə olunub.

Noyabrın 19-da isə Yasamal, Nizami və Xəzər rayonlarında qışa hazırlıqla bağlı növbəti müşavirələr keçirilib. Rayonlara qar təmizləmək üçün lazımi alət və avadanlıqların, duz ehtiyatının hazırlanması tapşırılıb. Eyni zamanda xüsusi texnikaların sazlığı yoxlanılmalı, küçə və məhəllələrin təmizliyinə cavabdeh şəxslər müəyyənləşdirilməlidir. Qarlı, şaxtalı qışla mübarizəyə hazırlıq prosesində bələdiyyələr, özəl qurumlar, digər idarə və təşkilatlar da diqqətdən kənarda qalmayıb. Onların qarla mübarizəyə cəlb olunması şaxtalı günlərdə şəhərin daha operativ təmizlənməsinə və bu istiqamətdə məsuliyyətin geniş şəkildə bölüşdürülməsinə imkan verəcək.

Əslində, qarla mübarizə yalnız xüsusi texnikaların küçələrə çıxarılmasından ibarət deyil. Əsas məsələ qar yağmamışdan əvvəl düzgün təşkilatlanmaqdır. Küçələrin, səkilərin, dayanacaqların, yeraltı keçidlərin vaxtında təmizlənməsi, buzlaşmaya qarşı tədbirlərin görülməsi və nəqliyyatın hərəkətinin təhlükəsizliyinin qorunması koordinasiyalı fəaliyyət tələb edir.

Göründüyü kimi, qış mövsümünə hazırlıq müxtəlif istiqamətlərdə aparılıb. İstilik xətləri yenilənib, qazanxanalar təmir olunub, təhsil müəssisələrinin istilik təminatı diqqətə alınıb, paytaxtın kommunal xidmətləri qar və şaxtaya qarşı hazırlıq vəziyyətinə gətirilib.

Lakin bu tədbirlərin nəticəsini hesabatlarda göstərilən rəqəmlərlə ölçmək doğru olmaz. Əsl qiyməti qışın ən sərt günləri verəcək. Məhz onda istilik sistemlərinin nə dərəcədə etibarlı işlədiyi, yolların nə qədər operativ təmizləndiyi, elektrik və qaz təchizatının necə idarə olunduğu, məktəb və xəstəxanalarda normal şəraitin qorunub-qorunmadığı aydın görünəcək. Qarşıdakı aylarda əlaqədar qurumların üzərinə böyük məsuliyyət düşür. Unutmayaq ki, qışın sərtliyi təbiətin qanunudur, onun yaratdığı çətinliklərə hazırlıqlı olmaq isə cavabdeh şəxslərin məsuliyyətidir.

Çünki qış hər il gəlir. Dəyişən isə ona nə dərəcədə hazır olmağımızdır.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Dünyanın demoqrafik xəritəsi dəyişir

Dünya əhalisinin artımı, doğum göstəricilərinin dəyişməsi və ölkələr arasında demoqrafik tarazlığın yenidən formalaşması müasir dövrün ən mühüm qlobal proseslərindən biridir. Bir tərəfdən, inkişaf etmiş ölkələr əhalinin qocalması və doğum səviyyəsinin azalması ilə üzləşir, digər tərəfdən, Asiya və Afrikanın bir sıra dövlətlərində hər il milyonlarla körpə dünyaya gəlir. Bu fərqlər təkcə əhalinin sayına deyil, həm də gələcək iqtisadi inkişafa, əmək bazarına, sosial təminat sistemlərinə və beynəlxalq münasibətlərə təsir göstərir.



Proqnozlara görə, 2026-cı ildə dünyada təxminən 132,5 milyon körpə anadan olub. Bu isə hər gün orta hesabla 363 mindən çox, hər saat təxminən 15 min uşağın doğulması deməkdir. Lakin yeni doğulanların ölkələr üzrə bölgüsü bərabər deyil. Bəzi dövlətlərdə doğuşların sayı milyonlarla ölçüldüyü halda digərlərində əhalinin təbii artımını təmin etmək getdikcə çətinləşir. Belə vəziyyət dünyanın demoqrafik ağırlıq mərkəzinin tədricən dəyişdiyini göstərir.

BMT-nin hesablamalarına əsasən, 2026-cı ildə ən çox körpənin dünyaya gəldiyi ölkə Hindistandır. Burada il ərzində 22 milyon 988 min 460 doğuş qeydə alınıb. Başqa sözlə, dünyaya gələn hər altı körpədən təxminən biri Hindistanda doğulur. Bu göstərici ölkənin qlobal demoqrafik proseslərdə nə qədər mühüm yer tutduğunu nümayiş etdirir. Hindistan artıq yalnız əhalisinin ümumi sayına görə deyil, yeni nəsillərin formalaşmasında oynadığı rola görə də dünyanın aparıcı dövlətidir.

Siyahının ikinci pilləsində Çin qərarlaşıb. Proqnozlara görə, 2026-cı il bitənə qədər bu ölkədə 8 milyon 625 min 232 körpə dünyaya gələcək. Bununla da Hindistanda illik doğuşların sayı Çindən təxminən 2,7 dəfə çox olacaq. İki ölkə arasındakı bu böyük fərq onların son yarım əsrdə keçdiyi demoqrafik inkişaf yollarının nəticəsidir. Bir vaxtlar dünyanın ən çox əhalisi olan dövləti kimi tanınan Çin indi doğum səviyyəsinin azalması və əhalinin yaşlanması kimi ciddi çağırışlarla qarşılaşır. Hindistanın illik doğuş sayına görə Çini geridə qoyması yeni hadisə deyil. BMT-nin tarixi məlumatlarına əsasən, 1974-cü ildə Çində təxminən 25,6 milyon, Hindistanda isə 23,3 milyon körpə dünyaya gəlmişdi. Lakin cəmi bir il sonra vəziyyət dəyişdi. 1975-ci ildə Hindistanda doğuşların sayı 23,45 milyona yüksəldiyi halda Çində 23,1 milyona endi. Bununla da Hindistan illik doğuşların ümumi sayına görə liderliyi ələ keçirdi.

Çinin demoqrafik inkişafında dövlətin ailə planlaşdırılması siyasəti xüsusi rol oynayıb. Ölkədə 1970-ci illərdən tətbiq edilməyə başlanan məhdudlaşdırıcı tədbirlər, xüsusilə 1980-ci ildə qüvvəyə minən tək uşaq siyasəti doğum göstəricilərinin azalmasını sürətləndirib. Sonrakı illərdə bu məhdudiyyətlər yumşaldılsa da, urbanizasiya, yaşayış xərclərinin artması, ailə qurma yaşının yüksəlməsi və sosial-iqtisadi dəyişikliklər doğum səviyyəsinə təsir göstərməkdə davam edib. Nəticədə Çin bu gün əhalinin yaşlanması, əməkqabiliyyətli insanların sayının azalması və sosial təminat xərclərinin artması ilə üzləşir. Hindistanda isə demoqrafik keçid daha uzun müddətdə baş verib. Ölkədə təhsil səviyyəsinin yüksəlməsi, qadınların əmək bazarında iştirakının genişlənməsi, şəhərləşmə və ailə planlaşdırılması imkanlarının artması doğum səviyyəsinin tədricən azalmasına səbəb olub.

Dünya üzrə doğuşların sayında diqqətçəkən digər mühüm məqam Afrika ölkələrinin mövqeyinin güclənməsidir. Siyahının üçüncü pilləsində Nigeriya qərarlaşıb. Afrikanın ən çox əhalisi olan bu ölkədə 2026-cı ilin sonunadək təxminən 7,7 milyon körpənin dünyaya gələcəyi gözlənilir. Nigeriya son onilliklərdə sürətli əhali artımı ilə seçilən dövlətlərdən biridir. Ölkədə gənclərin əhali strukturunda böyük paya malik olması gələcək illərdə də doğuşların sayının yüksək qalmasına şərait yaradır. Dördüncü yerdə qərarlaşan Pakistanda il ərzində təxminən 6,9 milyon körpə doğulub. Beşinci pilləni isə 4,6 milyon doğuşla Konqo Demokratik Respublikası tutur. Sonrakı yerlərdə İndoneziya, Efiopiya, Amerika Birləşmiş Ştatları, Banqladeş və Braziliya qərarlaşıb. Bu göstəricilər doğuşların ümumi sayına görə ilk onluqda Afrika və Cənubi Asiya ölkələrinin mühüm yer tutduğunu göstərir.

Dünyanın inkişaf etmiş ölkələrində isə tamamilə fərqli demoqrafik mənzərə müşahidə olunur. Avropanın bir çox dövlətində, eləcə də Yaponiya və Cənubi Koreyada aşağı doğum səviyyəsi əhalinin yaşlanması ilə müşayiət edilir. Ailələrin daha az uşaq sahibi olması, mənzil və yaşayış xərclərinin yüksəlməsi, əmək bazarındakı dəyişikliklər və ailəqurma yaşının artması bu prosesə təsir göstərən amillərdəndir. Belə ölkələrdə əməkqabiliyyətli əhalinin azalması pensiya sistemlərinə və səhiyyə xidmətlərinə əlavə yük yaradır.

Demoqrafik dəyişikliklər Azərbaycanın da diqqət mərkəzində olan məsələlərdəndir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2026-cı ilin əvvəlindən ölkə əhalisinin sayı 20 min 474 nəfər və ya 0,2 faiz artaraq oktyabrın 1-i vəziyyətinə 10 milyon 282 min 825 nəfərə çatıb. Ölkə əhalisinin 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

Doğum səviyyəsinin yüksək olması özlüyündə iqtisadi inkişafı təmin etmir. Sağlam, təhsilli və peşəkar gənc nəslin yetişdirilməsi, insan kapitalına davamlı investisiyaların yatırılması ölkələrin gələcək rəqabət qabiliyyətini müəyyən edən başlıca amillərdəndir. Hindistanın əhali sayına görə dünya liderliyini möhkəmləndirməsi, Afrikanın artan demoqrafik potensialı və inkişaf etmiş ölkələrdə doğum səviyyəsinin azalması qarşıdakı onilliklərdə qlobal demoqrafik mənzərənin əsas istiqamətlərini formalaşdırır. Bu şəraitdə dövlətlərin əsas prioriteti təhsil, səhiyyə, məşğulluq və sosial müdafiə sistemlərini gücləndirərək artan və ya dəyişən əhali strukturunun yaratdığı çağırışlara uyğun siyasət həyata keçirməkdir. Çünki ölkələrin gələcək inkişaf perspektivləri bu gün dünyaya gələn uşaqların sağlamlıq, təhsil və sosial inkişaf imkanlarından birbaşa asılı olacaqdır.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

Avstraliya qaydaları sərtləşdirir

Avstraliya hökuməti süni intellekt texnologiyalarını ölkənin xarici siyasətində əsas çağırışlardan biri kimi dəyərləndirir. Bununla belə, rəsmi Kanberra hesab edir ki, bu texnologiya cəmiyyətin təməllərini dəyişir və xarici qüvvələrə ölkənin demokratiyasına müdaxilə etmək üçün yeni imkanlar yaradır.



"Reuters" Agentliyinin məlumatına görə, Avstraliyanın xarici işlər naziri Penni Vonq parlamentdəki çıxışında bu məsələni xüsusi qabardıb. Nazir süni intellekti nəhəng ölkələr arasındakı strateji rəqabət, eləcə də orta güclərin artan təsiri kimi qlobal amillərlə eyni sırada qeyd edib.

Penni Vonqun sözlərinə görə, texnologiya iqtisadi və strateji gücün əsaslarını sürətlə dəyişir: "Süni intellekt və yeni texnologiyalar əvvəlki bütün inqilabi yeniliklərdən daha sürətlə yayılır. Onlar həyatımızı, iqtisadiyyatımızı və ordumuzu tam təxmin edə bilməyəcəyimiz şəkildə yenidən formalaşdırır".

Avstraliya hökumətinin bu mövqeyi konkret səbəblərə əsaslanır. Bu ayın əvvəlində "OpenAI" şirkətinə məxsus sistemin ölkənin səhiyyə məlumat bazasına sızması üzə çıxıb. Hadisədən sonra hökumət süni intellekt sahəsində qaydaları sərtləşdirmək qərarına gəlib. Yeni tələblərə əsasən, şirkətlər kibertəhlükəsizlik halları barədə mütləq hesabat verməli, eyni zamanda bu sahəyə nəzarət edən xüsusi tənzimləyici qurum yaradılmalıdır.

Nazir son vaxtlar xaricdən qaynaqlanan dezinformasiya əməliyyatlarına da diqqət çəkib. O bildirib ki, süni intellekt alətləri xarici qüvvələrin Avstraliya demokratiyasına müdaxiləsini asanlaşdırır. Bu müdaxilələr həm daha sürətli və ucuz başa gəlir, həm də onları aşkarlamaq çətinləşir. Bu səbəbdən Avstraliya öz mühüm infrastrukturunu və kibertəhlükəsizliyini gücləndirir. Ölkədə fəaliyyət göstərən qabaqcıl süni intellekt şirkətləri üçün isə məcburi təhlükəsizlik standartları tətbiq olunur. Hökumət bu sahəyə investisiya və innovasiyaları dəstəkləyir, lakin prosesin bütün avstraliyalıların maraqlarına uyğun aparılmasını tələb edir.

Penni Vonq qabaqcıl süni intellekt modellərinin hazırlanması yarışında sürətin ehtiyatlılığı üstələməməli olduğunu vurğulayır. O, bu məsələni nüvə silahlarının yayılmaması və onlayn təhlükəsizlik qaydaları ilə müqayisə edir. Nazir həmçinin bildirir ki, Avstraliya tərəfdaş ölkələrlə birlikdə beynəlxalq nizamın formalaşmasında yenidən fəal rol oynamaq niyyətindədir.

Bundan başqa, nazir beynəlxalq nizamı dəyişən digər beş əsas amili də diqqətə çatdırır. Bunlara nəhəng ölkələrin öz maraqlarını müəyyənləşdirmə tərzindəki dəyişiklikləri və orta güclərin artan təsiri daxildir. O, həmçinin güc tətbiqi ilə məcburiyyət təhdidlərinin artmasını və birgə beynəlxalq addımların atılmasının çətinləşməsini də xüsusi qeyd edir.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadəyə əzizi

RAİSƏ QULUZADƏNİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadəyə əzizi

RAİSƏ QULUZADƏNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadəyə əzizi

RAİSƏ QULUZADƏNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektorluğu, kollektivi və Həmkarlar İttifaqı Komitəsi universitetin Kibertəhlükəsizlik kafedrasının baş müəllimi Fərid Qasımlıya atası

FİKRƏT SƏDYAR OĞLU QASIMOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 538-35-55	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Kompüter mərkəzi	- 538-20-87,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Mühasibatlıq	- 539-59-33
İqtisadiyyat şöbəsi	- 538-42-32		

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3320
Sifariş 1542

Qiyməti 60 qəpik